QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 101 (5821) **5 iyun** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# İslami dəyərlər milli-mənəvi dəyərlərimizin ayrılmaz hissəsidir

İlham Əliyev: "Biz müasir dövlət qurmuşuq. O dövlət ki, dərin milli-mənəvi təməl üzərində qurulub"

Səh 2



13

Ramazan ayı gözəl niyyətlər və xeyirxah əməllər ayıdır



5

Serj Sarkisyan dindiriləcək



6

Beynəlxalq tədbirlərin paytaxtımızda keçirilməsi ölkəmizin uğurudur



# İslami dəyərlər milli-mənəvi dəyərlərimizin ayrılmaz hissəsidir

***Bu gün Azərbaycan dünya ölkələri üçün dini tolerantlıq nümunəsinə çevrilib. Dünyada çoxmədəniyyətli ölkə imici qazanmış Azərbaycanda müxtəlif xalqlar arasında ənənəvi dostluq və qardaşlıq münasibətləri və tolerantlıq hökm sürür. Ölkəmizdə yaşayan müxtəlif xalqlara milli-mənəvi dəyərlərini, dini etiqadını, adət-ənənələrini qoruyub-saxlamaq, dil və mədəniyyətini inkişaf etdirmək üçün demokratik şəraitin təmin edilməsi Azərbaycanı dünya ölkələri üçün tolerantlıq örnəyinə çevirib. Ölkəmizdə bütün dini konfensiyaların nümayəndələrinə etiqad azadlığının təmin edilməsi üçün zəruri şərait yaradılıb. Azərbaycanda rus pravoslav, katolik kilsələri var, hər biri də hər bir dövlətin diqqət və qayğısı ilə əhatə olunub. Bir sıra dövlətlər, məhz bizim təcrübəmizdən yararlanmağa çalışırlar. Ölkəmiz dünyanın inkişaf edən və bəşəri dəyərlərə sayğı göstərən ölkə kimi tanınıb.***



İlham Əliyev: "Biz müasir dövlət qurmuşuq. O dövlət ki, dərin milli-mənəvi təməl üzərində qurulub"

Bütün dinlərə hörmətlə yanaşan Azərbaycanın islami dəyərlərə də olan münasibəti əməli fəaliyyətdə aydın görünür. Müxtəlif dinlərin məbədlərinə qayğı və diqqət, o cümlədən, dini ocaqlara - məscidlərimizə olan münasibət Azərbaycanda din-dövlət münasibətlərinin və vətəndaş həmrəyliyinin yüksək səviyyəsini nümayiş etdirir. Bəli, bu gün Azərbaycan dünyəvi, müasir dövlət olmaqla yanaşı, milli dəyərlərə və adət-ənələrinə böyük hörmətlə yanaşan bir ölkədir. Ölkəmizdə din-dövlət münasibətləri formalaşıb. Mayın 23-də Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin müqəddəs Ramazan ayı münasibətilə iqamətgahında təşkil olunan iftar süfrəsində iştirak edən Azərbaycan Prezidenti İlham Əliyev, artıq ənənə halı alan iftar mərasimlərinin dövlət-din münasibətlərinin bariz nümunəsinə çevrildiyini bildirib. "Biz müasir dövlət qurmuşuq. O dövlət ki, dərin milli-mənəvi təməl üzərində qurulub" deyən Prezident İlham Əliyev islam dəyərlərini milli-mənəvi dəyərlərimizin ayrılmaz hissəsi kimi xarakterizə edib, Azərbaycanın islamı olduğu kimi - sülh, mərhəmət dini kimi dünyaya çatdırdığını və bu fəaliyyətin, bundan sonra da davam etdiriləcəyini diqqətə çatdırıb.

## "AZƏRBAYCAN ÖZ MÜSBƏT TƏCRÜBƏSİNİ BAŞQA ÖLKƏLƏRLƏ BÖLÜŞƏRƏK UMUMBƏŞƏRI DƏYƏRLƏRƏ QİYMƏTLİ TÖHFƏSİNİ VERİR VƏ VERƏCƏKDİR"

Dövlətimizin başçısı müsəlman ölkələri ilə dostluq və qardaşlıq əlaqələrinə malik Azərbaycanın bütün müsəlman ölkələri ilə sıx əlaqələr qurduğunu və beynəlxalq müstəvidə bir-birini daim dəstəklədiyini diqqətə çatdıraraq, Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatının fəal üzvü kimi islam həmrəyliyinin möhkəmlənməsinə öz dəyərli töhfəsini verdiyini qeyd edib. Azərbaycan həm də bu gün beynəlxalq aləmdə dinlərarası dialoqun möhkəmləndirilməsi üçün öz dəyərli töhfəsini verir.

Təsadüfi deyil ki, məhz Azərbaycan dünyanın multikulturalizm mərkəzlərindən birinə çevrilib. Ölkəmizdə keçirilən beynəlxalq tədbirlər, dialoqlar, mədəniyyətlərarası dialoq, humanitar forum, dünya dinlərinin liderlərinin zirvə görüşləri - bütün bunlar bu gün Azərbaycan reallıqlarıdır. Cənab Prezident çıxışlarının birində vurğulayıb: "Biz çalışırıq bu tədbirlərin keçirilməsi ilə ümumi işimizə töhfəmizi verək ki, dünyada da dini, milli zəmində heç vaxt anlaşılmazlıq və qarşıdurma olmasın. Əfsuslar olsun ki, biz bir çox hallarda bunun əksini görürük. Yaxın Şərqdə, Avropada, digər yerlərdə dini amil əsasında müharibələr, davalar və qanlı toqquşmalar baş verir. Bu, əlbəttə ki, bizi çox narahat edir. Yenə də deyirəm, ümid edirəm ki, Azərbaycan öz müsbət təcrübəsini başqa ölkələrlə bölüşərək, ümumbəşəri dəyərlərə qiymətli töhfəsini verir və verəcəkdir".

## AZƏRBAYCAN İSLAM DÜNYASININ BİR PARÇASIDIR VƏ ÖZ TARİXİ KEÇMİŞİNƏ SADİQDİR

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Prezident İlham Əliyev, bir daha vurğulayıb ki, Dağlıq Qarabağ bizim tarixi torpağımızdır və ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. "Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq" deyən dövlət başçısı Cocuq Mərcanlı kəndinin və orada Şuşa məscidinin bənzərinin inşa olunmasının xalqımızın əyilməz ruhunu təcəssüm etdirdiyini bildirib. Qeyd edək ki, dövlət başçısının tapşırığına əsasən, Cocuq Mərcanlı kəndində Şuşa məscidinin bənzəri olan məscid tikilib. Bu, bir daha dünyaya bəyan edir ki, Azərbaycan islam dünyasının bir parçasıdır və öz tarixi keçmişinə sadiqdir. Cocuq Mərcanlıda Şuşa məscidinin bənzərinin inşası həm də, o deməkdir ki, gün gələcək Şuşadakı məscid də bərpa ediləcək. Azərbaycan və Şərq memarlığının nadir incilərindən sayılan tarixi Şuşa məscidinin bənzəri olan bu dini ibadətgahda dindarlar üçün hər cür şərait yaradılıb. Bütün bunlar göstərir ki, Prezident İlham Əliyev ölkədə milli-mənəvi dəyərlərin qorunub-saxlanmasında müstəsna xidmətlər göstərir. Dövlətimizin başçısı islam dininin xalqımızın həyatındakı rolunu, onun milli kimliyimizin formalaşmasındakı əhəmiyyətini nəzərə alaraq, ölkədəki dini ibadətgahların qorunmasında, onların gələcək nəsillərə çatdırılmasında əsl fədakarlıq nümayiş etdirir. Son illərdə Azərbaycanda yeni məscidlərin tikilməsi və və ya təmir edilməsi, milli-mənəvi dəyərlərimizə olan diqqətdir. Xalqımız üçün çox böyük dəyər kəsb edən Bibiheybət, Təzəpir, Əjdərbəy, 743-cü ildə tikilmiş Şamaxı məscidi və başqaları insanların ixtiyarındadır. Dövlət başçısı qeyd edib ki, Azərbaycanda tarixi, dini abidələr qorunur və son illərdə, yüzlərlə məscid tikilib və təmir edilib. Ölkəmizdə dinlərarası münasibətlər də ən yüksək səviyyədə tənzimlənir. Bütün dünya bu reallıqları bilir və qəbul edir.

Təbii ki, görülən bu işlərdə əsas məqsəd vətəndaşların rahat ibadət etmələrini təmin etməkdir. Şübhəsiz, dinə bu cür qayğının təməlində milli-mənəvi dəyərlərimizin qorunması, qloballaşan dünyada milli özünəməxsusluğun itirilməsinin qarşısının alınması, azərbaycançılıq məfkurəsinin təbliği və gəncləri milli ruhda yetişdirmək istəyi durur.

Bəli, qətiyyətlə deyə bilərik ki, müxtəlif mədəniyyətlərin və dinlərin nümayəndələrinin və etnik azlıqların harmoniya halında yaşadığı Azərbaycan uğurlu bir inkişaf yolundadır. Azərbaycan istər ölkə səviyyəsində, istərsə də beynəlxalq səviyyədə dinlərarası və çoxmədəniyyətli harmoniyanın inkişafına təkan verir və bu nailiyyətin davamlı olması üçün tədbirlər həyata keçirir.

***Nəzakət ƏLƏDDİNQIZI***



# Birinci vitse-prezident Mehriban Əliyeva Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib

Birinci vitse-prezident Mehriban Əliyeva Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib. AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyevanın təbrikində deyilir: "Əziz həmvətənlər, Sizi müqəddəs Ramazan bayramı münasibətilə təbrik edirəm. Bu mənəvi yenilənmə və təmizlənmə bayramında sizə xoşbəxtlik və rifah, saf niyyətlər və xeyirxah işlər arzu edirəm. Allah sizin bütün oruclarınızı və dualarınızı qəbul etsin, Vətənimizə sülh, xoşbəxtlik, xoş günlər və firavanlıq bəxş etsin".

# ABŞ-da aparıcı yəhudi təşkilatının illik qlobal forumunda Azərbaycandakı tolerantlıqdan danışılıb



İyunun 2-4-də ABŞ-ın paytaxtı Vaşinqton şəhərində aparıcı yəhudi təşkilatlarından olan Amerika Yəhudi Komitəsinin illik qlobal forumu keçirilib. ABŞ və İsrailin aparıcı dövlət xadimlərinin, dövlət və qeyri-hökumət təşkilatlarının, diplomatik nümayəndəliklərin təmsilçilərinin iştirak etdikləri forumda 2 mindən çox qonaq iştirak edib. Tədbirə audio müraciət ünvanlamış İsrailin Baş naziri Benyamin Netanyahu İsrailin Azərbaycanla münasibətlərinin əhəmiyyətini vurğulayıb.

Forum çərçivəsində Amerika Yəhudi Komitəsinin sabiq prezidenti Con Şapironun şərəfinə qəbul keçirilib. Qəbulda komitənin Baş icraçı direktoru Deyvid Herris, hazırkı prezidenti Herriet Şlayfer, ravvin Ancela Buxdal, senator Maykl Bennet ilə yanaşı, Azərbaycanın ABŞ-dakı səfiri Elin Süleymanov da çıxış edib. Əsrlərboyu yəhudilərə gözəl münasibət göstərilən Azərbaycanda heç zaman antisemitizmə rast gəlinmədiyi qeyd edilib. Səfir Azərbaycana xüsusi rəğbəti ilə seçilən və bir neçə dəfə ölkəmizdə səfərdə olan C.Şapiroya ABŞ-Azərbaycan və Azərbaycan-İsrail münasibətlərinin inkişafında göstərdiyi xidmətlərə görə təşəkkürünü ifadə edib. Amerika Yəhudi Komitəsi ilə dostluq, əməkdaşlıq və tərəfdaşlıq üzərində qurulan münasibətlərin C.Şapironun təşkilata rəhbərlik etdiyi son 3 ildə daha da inkişaf etdiyi vurğulanıb.

Daha sonra Azərbaycan səfirliyində Global Forumda iştirak edən bir sıra qonaqlara şam yeməyi verilib, Azərbaycan-İsrail münasibətləri, ölkəmizdə yaşayan yəhudilərə dair müzakirələr aparılıb.

# Bakıda Avropa İttifaqı-Azərbaycan biznes forumu keçiriləcək



İyunun 13-də Bakıda Avropa İttifaqı-Azərbaycan biznes forumu keçiriləcək. AZƏRTAC xəbər verir ki, tədbirə Azərbaycanda biznes mühiti mövzusu üzrə plenar sessiya, o cümlədən hökumət rəsmiləri və şirkət nümayəndələrinin iştirakı ilə kənd təsərrüfatı, əlaqələndiricilik və turizm sektorları üzrə paralel panel müzakirələri daxildir. Biznes forum Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin Alman-Azərbaycan Xarici Ticarət Palatası (AHK Azərbaycan) və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) ilə birgə əməkdaşlığı çərçivəsində təşkil olunur.

# "Vaxtilə Azərbaycanı ağır böhran, vətəndaş müharibəsi həddinə çatdıran keçmiş hakimiyyət təmsilçiləri yenidən baş qaldırıb şər-böhtan kampaniyası aparırlar"



"26 il bundan əvvəl, 1993-cü ilin iyun ayının 4-də AXC-Müsavat hakimiyyətinə qarşı xalq qiyamı baş verdi. Cəmi 13 ay hakimiyyətdə duruş gətirənlər xalqın təpkisi ilə istefa verməyə məcbur oldu. Təzəcə bərpa olunmuş dövlət müstəqilliyinin üzərindəki başlıca təhlükə - qeyri-demokratik və yarıtmaz hakimiyyət aradan qalxdı. Ümummilli lider Heydər Əliyevin qayıdışı nəticəsində AXC-Müsavat cütlüyü hakimiyyətinin yaratdığı xaos, anarxiya, dərəbəylik, ölkəni parçalayan separatizm ləğv edildi, iqtisadi tənəzzül və total böhran cilovlandı, ölkədə insanların həsrətlə gözlədiyi sabitlik və əminamanlıq təmin edildi. Müstəqillik və dövlətçilik tariximizin yeni mərhələsi başladı. Heydər Əliyevin və İlham Əliyevin titanik səyləri nəticəsində Azərbaycan 1993-cü ildə dağılmaqda olan dövlətdən bugünkü güclü, qüdrətli, çiçəklənən dövlətə çevrildi". Bu fikirlərin müəllifi Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini - İcra katibi Əli Əhmədovdur.

Əli Əhmədov özünün rəsmi facebook səhifəsində etdiyi paylaşımda daha sonra qeyd edib: "Vaxtilə Azərbaycanı ağır böhran, vətəndaş müharibəsi həddinə çatdıran keçmiş hakimiyyət təmsilçiləri 1993-cü ilin dəhşətlərinin xalqın yaddaşından silindiyinə ümid edərək yenidən baş qaldırıb şər-böhtan kampaniyası aparırlar. Bir kərə yüksələn bayraq bir daha enmədiyi kimi, bir dəfə iflas olunanlar da heç vaxt bəraət qazanmırlar".

# Gənclər Fondunun Müşahidə Şurasının iclası keçirilib



İyunun 4-də Azərbaycan Respublikası Gənclər Fondunun Müşahidə Şurasının cari ildə ikinci iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda Fondun Müşahidə Şurasının gündəliyi müzakirə edilib, gənclərin məşğulluq, xaricdə təhsil, "Gənc-Lik" və "YayFest" proqramları barədə fikir mübadiləsi aparılıb, 2019-cu ilin birinci yarısında görülmüş işlər barədə hesabat məruzəsi dinlənilib. Sonra Gənclər Fondunun cari il üçün fəaliyyət planı müzakirə olunaraq təsdiqlənib. Həmçinin gənclər təşkilatları üçün XII qrant müsabiqəsinin mövzuları müəyyənləşdirilib və müsabiqənin elan olunması qərara alınıb.

İclasda Müşahidə Şurasının sədri, Prezident Administrasiyasının gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyev, Müşahidə Şurasının üzvləri - Gənclər və İdman nazirinin müavini İntiqam Babayev, Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva, Mədəniyyət nazirinin müavini Rafiq Bayramov, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Mətin Kərimli, "Gənclərin İntellektual İnkişafına Yardım" İctimai Birliyinin İdarə Heyətinin sədri Seymur Orucov, Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının sədri Məryəm Məcidova, "Cavan" Gənclər Hərəkatı İctimai Birliyinin icraçı direktorunun müavini Murad Ağabəyli və "Gələcəyə Körpü" Gənclər İctimai Birliyinin sədri Seymur Vəliyev iştirak ediblər.

# Ədliyyə naziri: "Bu günədək 111 məhkəmə binasının 60 faizi elektron məhkəmə sisteminə qoşulub"



Dünya Bankı ilə birgə həyata keçirilən layihələr çərçivəsində inşa edilən yeni, müasir məhkəmə binaları dövlətimizin başçısının 2014-cü il 13 fevral tarixli Sərəncamına uyğun olaraq, yaradılması nəzərdə tutulmuş "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi üzrə bütün zəruri infrastrukturla təchiz olunub.

AZƏRTAC xəbər verir ki, bunu iyunun 4-də Ədliyyə Nazirliyinin və Dünya Bankının təşkilatçılığı ilə Bakıda keçirilən "Keçmişə və gələcəyə baxış: Azərbaycanda ədliyyə sektorunun nailiyyətləri" mövzusunda forumda çıxış edən Ədliyyə naziri Fikrət Məmmədov deyib.

Nazir qeyd edib ki, Dünya Bankı ilə birgə həyata keçirilən layihə çərçivəsində köhnə məhkəmə binalarında da uyğunlaşdırma işləri aparılaraq, "Elektron məhkəmə" sisteminin tətbiqi üzrə bütün zəruri avadanlıq quraşdırılıb. Bu günə 111 məhkəmənin 60 faizi bu sistemə qoşulub. Elektron məhkəmənin bir çox komponentləri hazırda uğurla tətbiq olunur.

# Paytaxt Bakı YUNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına ev sahibliyi edəcək

***BMT-nin ixtisaslaşmış təşkilatı olan YUNESKO dünyanın təhsil, elm və mədəniyyət məsələləri sahəsindəki əməkdaşlığın ən böyük hökumətlərarası forumudur. BMT-nin bu ixtisaslaşmış orqanının vəzifəsi müharibə nəticəsində dağıdılmış ölkələrdə sinif otaqları tikmək, yaxud elmi nailiyyətləri nəşr etməklə məhdudlaşmamışdır.***

YUNESKO-nun fəaliyyəti daha ali məqsədə - təhsil, elm, mədəniyyət və kommunikasiya vasitəsilə insanların şüurunda sülhü müdafiə etmək ideyasını möhkəmləndirməyə yönəlmişdir. YUNESKO irqindən, cinsindən, dilindən və dinindən asılı olmayaraq, bütün xalqlar üçün BMT-nin Nizamnaməsində elan edilmiş ədalətə, qanunçuluğa və insan hüquqlarına, habelə, əsas azadlıqlara hamılıqla hörmətin təmin edilməsi naminə xalqların təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlığını genişləndirməklə, sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə yardım göstərməyi qarşısına vəzifə qoymuşdur. Həmin dövrdən başlayaraq, bu günə qədər quruma üzv olan dövlətlərin sayı artmışdır. Azərbaycan - YUNESKO əlaqələrini bu sırada, xüsusi olaraq, qeyd etməliyik. Bu əlaqələndirici körpünün əsası müstəqillik dövründən başlamışdır.

Bu gün Azərbaycanla YUNESKO arasında əlaqələr davamlı şəkildə həyata keçirilir. Bu istiqamətdə Heydər Əliyev Fondunun apardığı məqsədyönlü fəaliyyəti xüsusi qeyd etməliyik. Azərbaycan maddi və mənəvi irsinin YUNESKO-nun nadir əsərləri sırasına daxil edilməsi, beynəlxalq əməkdaşlığın əsas göstəriciləridir. Belə ki, Muğam sənətinin, Aşıq sənətinin, Novruz bayramının, İçərişəhərin, Tar ifaçılığı sənətinin, Azərbaycan kəlağayısının və s. YUNESKO-nun nadir, şah əsərləri sırasına daxil edilməsi Azərbaycanla bu təşkilat arasında olan əməkdaşlığın davamlığını diqqətə çatdırır. Sözsüz ki, sadaladığımız nadir irsin bu siyahıya daxil edilməsində Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın rolu xüsusidir. Bu cür layihələri həyata keçirən Mehriban xanım Əliyevanın humanizm ideyalarının beynəlxalq aləmdə əks-səda doğurmasının nəticəsidir ki, Ona bu təşkilatın Xoşməramlı Səfiri adı verilmişdir. 15 il əvvəl Mehriban xanım Əliyeva Azərbaycan şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunub-saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz səylərinə, dünya mədəniyyətlərinin mübadiləsi sahəsində xidmətlərinə, həmçinin, YUNESKO-nun ideyalarına sadiqliyinə görə, bu təşkilatın Xoşməramlı Səfiri adına layiq görülüb. Qurulan əməkdaşlıq Azərbaycanın sərvətlərinin beynəlxalq məkanda dəyərləndirilməsində bir körpü rolunu oynayıb.

### TƏŞKİLATÇILIQ BACARIĞI İLƏ ÖRNƏK OLAN ÖLKƏMİZ TƏCRÜBƏSİNDƏN YARARLANACAQ

2013-cü ildə YUNESKO-nun Qeyri-Maddi Mədəni İrsin Mühafizəsi üzrə



Hökumətlərarası Komitəsinin 8-ci sessiyasına uğurla ev sahibliyi edən Azərbaycan eyni müvəffəqiyyətlə hər iki ildən bir YUNESKO-nun rəsmi tərəfdaşlığı ilə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilməkdədir. Ümumdünya İrs Komitəsinin 42-ci sessiyasında qəbul edilmiş qərara əsasən, Azərbaycan 2019-cu ildə bu mötəbər qurumun növbəti 43-cü sessiyasına ev sahibliyi etmək hüququ əldə etmişdir. Azərbaycan üçün mühüm əhəmiyyətə malik belə bir qərarın qəbul olunması ölkəmizin YUNESKO ilə tərəfdaşlıq münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyini göstərir.

Azərbaycan Prezidenti İlham Əliyev YUNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının 2019-cu ildə Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında imzaladığı 9 avqust 2018-ci il tarixli Sərəncama əsasən, YUNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının 2019-cu il 30 iyun-10 iyul tarixində Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsi yaradılıb. Beynəlxalq tədbirləri yüksək səviyyədə keçirən Azərbaycan bu tədbirində təşkili üçün lazımı işlər görəcəkdir. Təşkilatçılıq bacarığı ilə örnək olan ölkəmiz öz təcrübəsindən yararlanacaqdır. Sərəncamın 1-ci hissəsi ilə yaradılmış Təşkilat Komitəsi 2019-cu ildə YUNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakı şəhərində keçirilməsinə dair Tədbirlər Planı hazırlayıb həyata keçirir.

### YUNESKO İLƏ AZƏRBAYCAN ARASINDA ƏMƏKDAŞLIQ DAVAMLIDIR

Belə möhtəşəm tədbirlərin ölkəmizdə təşkili, vurğuladığımız kimi, YUNESKO ilə Azərbaycan arasında olan dostluq körpüsünün məntiqi nəticəsidir. Mehriban xanım Əliyevanın fəaliyyəti sayəsində Azərbaycanla YUNESKO arasında əməkdaşlıq genişlənmişdir. Əbəs deyil ki, bəşəriyyətin maddi və qeyri-maddi mədəni irsinin populyarlaşmasındakı işinə sədaqətinə, mədəniyyətlərarası dialoqun inkişafı naminə göstərdiyi səylərə, mədəni müxtəlifliyin möhkəmləndirilməsinə sanballı töhfələrinə görə, YUNESKO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyevaya YUNESKO-nun baş direktoru tərəfindən "Qızıl Motsart" medalı təqdim olunub. İrina Bokovanın Onun ünvanına söylədiyi "Siz YUNESKO-nun humanist dəyərlərinin əsl bayraqdarısınız" ifadəsi Mehriban Xanım Əliyevanın bu təşkilatla olan əməkdaşlığının bariz göstəricisidir.

Mehriban xanım Əliyevanın əməli fəaliyyətinin nəticəsi olaraq, Azərbaycanın görkəmli şəxsiyyətlərinin və əlamətdar hadisələrin yubileyləri YUNESKO çərçivəsində qeyd edilir. Mehriban xanım Əliyevanın YUNESKO-nun Mənzil-Qərargahında Xoşməramlı Səfirlərin toplantılarında, qurumun mötəbər tədbirlərində iştirakı, keçirdiyi görüşlər, YUNESKO-nun dünya mədəniyyəti və dayanıqlı inkişafda rolu, dünyada təhsilin vəziyyəti və digər aktual mövzularda çıxışları da böyük maraqla qarşılanır.

***Zümrüd BAYRAMOVA***





# Səbail rayonunda iftar süfrəsi təşkil olundu

Dünya müsəlmanlarının ən əziz bayramlarından biri olan müqəddəs Ramazan bayramı münasibətilə YAP Səbail rayon təşkilatı və Səbail rayon İcra Hakimiyyəti, hər il olduğu kimi, bu il də öz ənənələrinə sadiq qalaraq, aztəminatlı rayon sakinləri üçün iftar süfrəsi təşkil ediblər. Belə ki, 4 iyun 2019-cu il tarixində YAP Səbail rayon təşkilatı və Səbail rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Səbail rayonunda Müqəddəs Ramazan ayı münasibətilə iftar süfrəsi açıldı.

200 nəfərlik iftar süfrəsində rayon ictimaiyyəti nümayəndələri, rayonun Səbail, Badamdar və Bibi-Heybət qəsəbələrinin, əsasən, aztəminatlı sakinləri, müharibə veteranları, şəhid ailələrinin üzvləri, kimsəsizlər, tənha ahıllar, əlillər, eləcə də, partiya fəalları və gənclər iştirak etdilər.

Mərasimdə Qurani-Kərimdən ayələr oxundu, dualar səsləndi, bu müqəddəs ayın fəzilətlərindən, iftarın savablarından danışıldı, ölkə rəhbərliyi səviyyəsində milli-mənəvi dəyərlərimizin qorunması və aztəminatlı vətəndaşlara göstərilən dövlət qayğısı xüsusi vurğulandı. Sonra süfrə açıldı. İştirakçılar, rayon sakinləri iftarın təşkilində əməyi keçənlərə minnətdarlıqlarını bildirdilər və onlara cansağlığı və bol ruzi-bərəkət arzuladılar.

***RƏFİQƏ***

## Rəsədxana yeni ayın görünməsi ilə bağlı açıqlama verib



Yeni ay iyunun 3-də saat 14:03 dəqiqədə (Bakı vaxtı ilə) təzələnib. Bu barədə AZƏRTAC-a məlumat Azərbaycan Milli Elmlər Akademiyasının Şamaxı Astrofizika Rəsədxanasından verilib. Bildirilib ki, təzələnmiş ayın Hilalının görünməsi yalnız ekvatora yaxın ölkələrdə 14-16 saatdan sonra mümkün olur. Ekvatordan uzaq ölkələrdə isə 18-20 saatdan sonra təzələnmiş ayın Hilalını gözlə görmək mümkündür. Odur ki, Azərbaycan Respublikasının üfüqündə Şəvval ayının Hilalı iyunun 4-də (axşam saatlarında 20:20 / 21:06 ərəfəsində) gözlə görünəcək.

## "Bu il 10 min ailə mikrotəsərrüfatlarla təmin olunacaq"

Bu il ərzində 10 min ailə mikrotəsərrüfatlarla təmin olunacaq. AZƏRTAC xəbər verir ki, bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev bildirib. Nazir gələcəkdə bu rəqəmin 15 minə çatdırılmasının nəzərdə tutulduğunu qeyd edib.

## "İradə İbrahimova: Ov mövsümünün açılması istənilən yerdə ov edilməsinə icazə demək deyil"

"Azərbaycanda 2019-2020-ci illərin ov mövsümü iyunun 1-dən etibarən açıq elan edilib. Lakin ov mövsümünün açılması o demək deyil ki, hər kəs istədiyi yerdə ov edə bilər." Bu sözləri Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri İradə İbrahimova iyunun 4-də keçirilən mətbuat konfransında deyib. Mətbuat katibi bildirib ki, vaxtaşırı icazəsiz ov edən şəxslər saxlanılır, cərimə edilir: "Biz kiminsə cərimələnməsində maraqlı deyilik. Buna görə də ov turizmi ilə məşğul olanların bir çoxunun qaydaları bilmədiklərini və yaxud əməl etmədiklərini nəzərə alaraq il ərzində ov qaydaları barədə tez-tez maarifləndirici məlumatlar veririk. Qaydaları pozmamaq üçün ovçu icazə bileti almalı, icazə verilən əraziləri, ovuna icazə verilən heyvan növlərini və növlərin hansı müddətlərdə ovlanmasını bilməlidir. Məqsədimiz ov qaydalarından, qoyulan tələblərdən ovçuları xəbərdar etməkdir".

## "Hazırda Azərbaycan 190 ölkə ilə ticarət əməliyyatları aparır"




Hazırda Azərbaycan 190 ölkə ilə ticarət əməliyyatları aparır. AZƏRTAC xəbər verir ki, bu barədə iqtisadiyyat naziri Şahin Mustafayev bildirib. "Ölkədə fəaliyyət göstərən sənaye məhəllələrində qeydiyyatdan keçmiş iştirakçıların sayı 36 olmaqla, ümumilikdə 140 milyon manata yaxın investisiya yatırılması, 2 minədək iş yerinin yaradılması nəzərdə tutulur. Bu müəssisələrin 21-i artıq istehsal fəaliyyətinə başlayıb. Bu il daha 15 müəssisə istifadəyə veriləcək", - deyə nazir bildirib. Nazir, həmçinin ötən il 1 milyona yaxın iş yerinin yaradıldığını, sənaye məhəlləri tərəfindən 3,3 milyard manat investisiya yatırıldığını deyib.

# Həyatını neft və qaz yataqlarının işlənməsinə həsr edən alim

*Dünya neft tarixinə Tümenin zəngin təbii sərvətlərinin ilk kəşfiyyatçılarından biri kimi daxil olmuş Fərman Salmanovun adı Rusiya Federasiyasının Surqut şəhərinin hava limanına verilib*

***Qədim və zəngin tarixə malik Azərbaycan torpağı böyük istedada malik olan elm, sənət xadimləri yetişdirib. Bu insanlar ölkəmizin hududlarından çox-çox uzaqlarda tanınmış simalardır. Azərbaycan xalqının yetişdirdiyi ziyalılar sırasında geologiya-minerologiya elmləri doktoru, Rusiya Elmlər Akademiyasının müxbir üzvü, 160-dan artıq monoqrafiya və elmi əsərlərin müəllifi olan Fərman Salmanovun da adı var.***

Bütün həyatını neft və qaz yataqlarının işlənməsinə həsr edən Fərman Salmanovun adı dünya neft tarixinə Tümenin zəngin təbii sərvətlərinin ilk kəşfiyyatçılarından biri kimi daxil olmuşdur. Rusiya Federasiyasının Surqut şəhərinin hava limanına görkəmli neftçi Fərman Salmanovun adının verilməsi də təsadüfi deyil. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edərək, Rusiya Federasiyasının Surqut şəhərinin hava limanına görkəmli neftçi Fərman Salmanovun adının verilməsi ilə bağlı təşəkkürünü bildirib və bu qərarın Azərbaycan ictimaiyyəti tərəfindən böyük minnətdarlıqla qəbul edildiyini vurğulayıb. Telefon söhbəti zamanı Azərbaycan-Rusiya ikitərəfli münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirilib və əldə edilmiş nailiyyətlərdən məmnunluq ifadə olunub.

### HEÇ BİR NEFT EHTİYATININ OLMADIĞI İDDİA EDİLƏN QƏRBİ SİBİRDƏ İLK NEFT YATAQLARINI ÜZƏ ÇIXARMIŞ AZƏRBAYCANLI ALİM

Qeyd edək ki, F.Salmanov 1928-ci il iyu-



lun 28-də Şəmkir rayonunun Morul kəndində anadan olmuşdur. Orta məktəbi başa vurduqdan sonra Azərbaycan Sənaye İnstitutunda ali təhsil alaraq, 1954-cü ildə həmin institutun geoloji kəşfiyyat fakültəsini bitirmişdir. Əmək fəaliyyətinə hələ erkən yaşlarından geoloji ekspedisiyada sıravi işçi kimi başlayan Fərman Salmanov 1954-1959-cu illərdə Novosibirsk Geologiya İdarəsində geoloq, böyük geoloq, neft kəşfiyyatı ekspedisiyasının rəisi olmuşdur.

1959-cu ildə Tümen Ərazi Geologiya İdarəsi Surqut Neft Kəşfiyyatı Ekspedisiyasının rəisi vəzifəsinə təyin edilən Fərman Salmanov 1962-1964-cü illərdə Ust-Balık ekspedisiyasının baş geoloqu, 1964-1970-ci illərdə Pravdinsk Neft Kəşfiyyatı Ekspedisiyasının rəisi, 1970-1987-ci illərdə Tümen Baş Geologiya İdarəsinin rəis müavini və rəisi vəzifələrində çalışmışdır.

O, heç bir neft ehtiyatının olmadığı iddia edilən Qərbi Sibirdə ilk neft yataqlarını üzə çıxarmışdır. Fərman Salmanovun rəhbərliyi altında karbohidrogen ehtiyatları ilə zəngin yüzdən artıq irihəcmli yataq kəşf edilərək, istismara verilmişdir. Belə ki, Salmanov 1961-ci ilin 21 mart tarixində Megion yatağını kəşf edir. Yataqda qazılmış ilk kəşfiyyat quyusu neft fontanı vurur. Salmanov əleyhdarlarına belə bir məktub yazır: "Möhtərəm yoldaşlar, Megionda 2180 metr dərinlikdən neft fışqırır. Aydındırmı?" Salmanovun SSRİ Geologiya nazirliyindəki əleyhdarları hadisənin təbii anomaliya olduğunu deyir və neft fontanının tezliklə tükənəcəyini bildirirdilər. Salmanov Üst-Balıqda ikinci neft-qaz yığımını kəşf etdikdən sonra Kommunist Partiyasının 22-ci konqresinə Sovet lideri Nikita Xuruşşova məktub ünlanlayır. "Mən neft tapmışam. Bax belə". Tezliklə Sovet liderləri Salmanovun kəşflərinin əhəmiyyətini dərk edirlər və Sibir qısa müddətə, ölkə iqtisadiyyatının əsas aparıcı qüvvəsinə çevrilir.

### ŞƏXSİYYƏTİNDƏ TƏDQİQATÇI-ALİM SƏRİŞTƏSİ, PEŞƏKAR NEFTÇİ İSTEDADI, DÖVLƏT VƏ İCTİMAİ XADİM TƏCRÜBƏSİ VƏHDƏT TƏŞKİL EDİB

Fərman Salmanov ömrünün 50 ilini Sovet İttifaqı və Rusiya Federasiyasının neft-qaz sənayesinə həsr etmişdir. Fərman Salmanovun şəxsiyyətində tədqiqatçı-alim səriştəsi, peşəkar neftçi istedadı, dövlət və ictimai xadim təcrübəsi vəhdət təşkil etmişdir. İstehsalatda uğurlarını elmi fəaliyyətlə səmərəli şəkildə əlaqələndirən alim 1972-ci ildə doktorluq dissertasiyası müdafiə edərək, geologiya-minerologiya elmləri doktoru elmi dərəcəsi almışdır. O, 1989-cu ildə Rusiya Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir. Tanınmış geoloq-alimin neft və qaz geologiyası sahəsində fundamental axtarışlarının nəticələri mütəxəssislər tərəfindən daim yüksək qiymətləndirilmiş və ixtisaslı neftçi kadrların yetişdirilməsində mühüm rol oynamışdır.

Fərman Salmanov 1987-1991-ci illərdə SSRİ Geologiya nazirinin müavini olmuş, 1992-ci ildən "Rospan İnternəşnl" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti, 2002-ci ildən isə "İtera" şirkəti Direktorlar Şurası sədrinin müşaviri, eləcə də, "Yuqneftqaz" Cəmiyyəti Direktorlar Şurasının sədri işləmişdir.

F.Salmanovun şəxsiyyətində tədqiqatçı-alim səriştəsi, peşəkar neftçi istedadı, dövlət və ictimai xadim təcrübəsi vəhdət təşkil etmişdir. Tanınmış geoloq-alimin neft və qaz geologiyası sahəsində fundamental axtarışlarının nəticələri mütəxəssislər tərəfindən daim yüksək qiymətləndirilmiş və ixtisaslı neftçi kadrların yetişdirilməsində mühüm rol oynamışdır.

F.Salmanovun ictimai xadim kimi fəaliyyəti zəngin və təqdirəlayiqdir. Ayrı-ayrı illərdə Azərbaycanın və Rusiyanın ali məclislərinin deputatı olmuş F.Salmanov iki ölkə arasında əlaqələrin möhkəmləndirilməsi işinə kömək göstərmiş, Rusiyada Azərbaycan diasporunun formalaşdırılması və inkişaf etdirilməsində böyük əmək sərf etmişdir. F.Salmanov neft sənayesinin inkişafındakı xidmətlərinə görə bir çox fəxri adlarla, müxtəlif orden və medallarla təltif edilmiş, müstəqil Azərbaycanın ali mükafatına - "Şöhrət" ordeninə layiq görülmüşdür.

Görkəmli neftçi, mühəndis-geoloq, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət mükafatı laureatı, Rusiya Elmlər Akademiyasının müxbir üzvü, geologiya-mineralogiya elmləri doktoru F.Salmanov 2007-ci il martın 31-də ömrünün 79-cu ilində vəfat etmişdir.

Görkəmli neftçi alim, gözəl ziyalı və təvazökar insan F.Salmanovun xatirəsi onu tanıyanların qəlbində əbədi yaşayır.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin növbəti iclası keçirilib

İyunun 4-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin növbəti iclası keçirilib. Komitənin sədri Ziyad Səmədzadə gündəliyə beş məsələnin daxil olduğunu bildirib. Əvvəlcə "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi ikinci oxunuşda müzakirə olunub. Qanun layihəsi ilə bağlı Maliyyə nazirinin müavini Azər Bayramov, deputatlar fikir və təkliflərini səsləndiriblər. Sonra "Aqrar sığorta haqqında", "Sığorta fəaliyyəti haqqında", "Dövlət rüsumu haqqında" və "Təhsil haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri də ikinci oxunuşda müzakirə olunub. Qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə edilib.



## "Dövlət siyasətində gənclərin elmə marağının artırılmasına xüsusi yer ayrılır"



Azərbaycanın dövlət siyasətində gənclərin elmə marağının artırılmasına, elmi-tədqiqatlara cəlb olunmasına xüsusi yer ayrılır. Bu fikri AZƏRTAC-a müsahibəsində Azərbaycan Milli Elmlər Akademiyasının Gənc Alim və Mütəxəssislər Şurasının sədri, dosent Famin Salmanov söyləyib. O vurğulayıb ki, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 15 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı böyük əhəmiyyət daşıyır. Proqramın məqsədi Azərbaycanda gənclər siyasətinin daha səmərəli həyata keçirilməsinə nail olmaq, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək, gənc nəslin sağlamlığını qorumaq, gənclərin təhsil və məşğulluq məsələlərinə diqqəti artırmaqdır. Dövlət Proqramında gənc alimlərin elmi fəaliyyətinin stimullaşdırılması, gənclərin elmə istiqamətlənməsi ilə bağlı bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulub. Proqram çərçivəsində biz Gənc Alim və Mütəxəssislər Şurası olaraq müəyyən tədbirlər keçirmişik və bu istiqamətdə fəaliyyətimizi davam etdiririk.

## Serj Sarkisyan dindiriləcək



"Aprel döyüşləri ilə bağlı ictimaiyyəti narahat edən bütün məsələlər araşdırılacaq". SİA-nın verdiyi məlumata görə, bunu Ermənistan parlamentinin Müdafiə və təhlükəsizlik məsələləri üzrə daimi komissiyasının üzvü, hakim "Mənim addımım" fraksiyasının deputatı Tiqran Karapetyan bildirib.

Onun sözlərinə görə, zərurət yarandığı təqdirdə məğlubiyyəti araşdıran komissiya keçmiş prezidenti də dindirəcək. "Bu mövzuda keçmiş və ya indiki deyə məhdudiyyət qoymuruq. Bütün prosesi araşdırırıq. Ehtiyac olacaqsa, biz Serj Sarkisyanı da dəvət edəcəyik", - deyə Karapetyan vurğulayıb.

## ABŞ səfirliyinin nümayəndəsi: Azərbaycanda innovasiyalar və startapların inkişafı diqqət mərkəzindədir

"İnnoFest" çərçivəsində Bakıda ilk dəfə "TechFest" sərgisi keçirildi. Burada ilk dəfə "İdeyadan biznesə- İ2B Junior" layihəsinin təqdimatı oldu. AZƏRTAC xəbər verir ki, bu barədə "İnnoFest"ə həsr olunmuş mətbuat konfransında ABŞ-ın Azərbaycandakı səfirliyinin mədəniyyət və təhsil işləri üzrə müşaviri Heidi Smit deyib.

H.Smit qeyd edib ki, Azərbaycanda innovasiyalar və startapların inkişafı diqqət mərkəzindədir. Çox sevindiricidir ki, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi bu sahənin inkişafında fəal iştirak edir. Bu prosesdə biz də yaxından iştirak etməyi planlaşdırırıq.

# Beynəlxalq tədbirlərin paytaxtımızda keçirilməsi ölkəmizin uğurudur

***Bu gün Azərbaycan inkişafın bütün istiqamətləri üzrə modelini ortaya qoyub. Ölkəmizdə ictimai-siyasi sabitliyin mövcudluğu dinamik inkişaf tempini qoruyub-saxlayır. Son illər Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm nailiyyətlər qazanan ölkəmiz beynəlxalq miqyaslı yarışlara, festivallara, qlobal forumlara və konfranslara ev sahibliyi edir.***


















Bakıda NATO Parlament Assambleyasının seminarı, ATƏT Parlament Assambleyasının illik sessiyası, IV Bakı Beynəlxalq Humanitar, Gənclər Siyasəti üzrə I Qlobal Forumu, Caz Festivalı, "Eurovision-2012" musiqi yarışması, "Bakı Elm Festivalı-2014", BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu kimi mühüm əhəmiyyət kəsb edən tədbirlərin təşkil olunmasında Azərbaycanın qazandığı mövqeyi, ölkəmizin beynəlxalq çəkisi və yüksək imici buna səbəbdir. Azərbaycan bu gün ictimai-siyasi sabitliyin yüksək səviyyədə təmin edildiyi ölkələr sırasında aparıcı yerlərdən birini tutur. Beynəlxalq tədbirlərin keçirilməsi mürəkkəb bir mexanizmə malik olduğundan, təşkilatçılıq, təhlükəsizlik və iqtisadi imkanların mövcudluğu da həlledici rola malikdir ki, ölkəmizdə bütün bu və ya digər tədbirlər yüksək səviyyədədir. Bu baxımdan, beynəlxalq yarış və tədbirlərin Azərbaycanda keçirilməsi ölkəmizin böyük uğurudur. Azərbaycanın dünyada etibarlı tərəfdaş, dünyəvi ölkə, güclü iqtisadiyyata, sabit və təhlükəsizliyə malik olması digər ölkələrlə rəqabətdə üstünlüyə gətirib çıxarır.

## BAKI DÜNYADA İDMAN TƏDBİRLƏRİNİN GENİŞ KEÇİRİLDİYİ ŞƏHƏRLƏR SIRASINDADIR

Ölkəmizdə keçirilən tədbirlər, bir daha göstərir ki, Azərbaycan sürətlə inkişaf etməkdədir. Tədbirin təşkilatçıları olan tərəfdaşlar da beynəlxalq miqyaslı tədbirlərin keçirilməsi üçün, ilk növbədə, sabitliyin, təhlükəsizliyin təmin olunduğu və inkişaf edən ölkələrə etimad göstərirlər. Respublikamızda hökm sürən və ardıcıl səciyyə daşıyan sabitliyin əsasında duran başlıca faktor isə hakimiyyətin həyata keçirdiyi siyasi kursun ümummilli maraq və mənafeyə tam cavab verməsidir.

Azərbaycanda son illər keçirilən beynəlxalq tədbirlər ölkəmiz haqqında təəssüratları genişləndirir və respublikamızın imicinə müsbət təsir göstərir.

Bu gün Azərbaycan artıq dünyada yüksək templərlə inkişaf edən idman ölkəsi kimi də tanınır. Azərbaycanda idman və Olimpiya hərəkatının inkişafında da böyük canlanma var. Gələcəyə hesablanmış idman siyasəti ölkəmizdə sağlam nəsil və böyük idmançı ordusu formalaşdırıb. Bütün bunlar Azərbaycanda həyata keçirilən idman siyasəti, həmçinin, idmanın inkişafına dövlət tərəfindən göstərilən diqqət və qayğının məntiqi nəticəsidir. Dünyanın idman arenalarında artıq özünə layiqli yer tutan Azərbaycan müxtəlif idman yarışlarına yüksək səviyyədə ev sahibliyi edir. Bədii gimnastika, qılıncoynatma, taekvondo, güləş, boks, karate, avarçəkmə, FİFA U-17 Qadınlararası Dünya Çempionatı, "Baku World Challenge" avtomobil yarışı və Olimpiya növlərinə daxil olan digər beynəlxalq idman tədbiri, o cümlədən, Dünya və Avropa çempionatlarının təşkili ölkəmizə böyük imic qazandırıb. Ölkəmiz tarixdə ilk dəfə təşkil olunan "Bakı-2015" Avropa Oyunlarını layiqincə təşkil etməklə, tək özünün deyil, qitənin idman tarixinə möhürünü vurmuş oldu. Bu yarışlar həm də ölkəmizdə idmanın inkişafda olduğunu, Olimpiya hərəkatının geniş vüsət aldığını bütün dünyaya nümayiş etdirdi. "Formula-1" yarışlarını 500 milyondan artıq insan izlədi.

## UEFA AVROPA LİQASININ FİNAL OYUNUNA EV SAHİBLİYİ ETMƏSİ DÜNYANIN DİQQƏTİNİ YENİDƏN PAYTAXTIMIZA YÖNƏLTDİ

Mayın 29-da Bakının UEFA Avropa Liqasının final oyununa ev sahibliyi etməsi dünyanın diqqətini yenidən paytaxtımıza yönəltdi. Beynəlxalq tədbirlərin təşkilinə məsuliyyətlə yanaşan Azərbaycan növbəti bir uğura da imza atdı. Final oyununa hazırlıq mərhələsi və oyunun özü çox yüksək səviyyədə təşkil olunması fikirlərimizi təsdiqləyir. Bakıda futbol həyəcanı yaşandı. Azərbaycan UEFA Avropa Liqasının final oyununa yüksək səviyyədə ev sahibliyi etdi. Bu nüfuzlu tədbirin uğurla keçirilməsi Azərbaycanın böyük beynəlxalq tədbirləri, o cümlədən, bütün dünyanın diqqət mərkəzində olan idman yarışlarını yüksək səviyyədə təşkil etmək bacarığını, bir daha nümayiş etdirdi.

Təbii ki, final oyununun Azərbaycanda keçirilməsi ölkəmizin uğurudur. Final oyununun keçiriləcəyi şəhərin müəyyənləşdirilməsi zamanı, Bakıya qarşı çox güclü rəqiblər olmuş olsa da, üstünlük paytaxtımıza verilmişdi. Bu, Azərbaycanın ildən-ilə artan nüfuzunun göstəricisidir. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda idman sahələrinin, o cümlədən, futbol infrastrukturunun yaradılması, yeni stadionların, xüsusilə, Bakı Olimpiya Stadionunun tikintisi də daxil olmaqla, həyata keçirilən ümumi sosial-iqtisadi siyasətin uğurudur. Mükəmməlliyi ilə diqqəti cəlb edən Bakı Olimpiya Stadionu beynəlxalq standartlara tam cavab verən idman obyektidir. Stadion müasirliyi, funksional baxımdan əlverişliliyi, paytaxtın memarlığına və irəli sürülən texniki şərtlərə maksimum uyğunluğu ilə seçilir. Belə bir məkanda UEFA Avropa Liqasının final oyununun çox yüksək səviyyədə təşkil olunması, onu da göstərir ki, 2020-ci ildə Bakı Olimpiya Stadionunda Avropa Çempionatının keçiriləcək oyunları da çox yüksək səviyyədə təşkil olunacaq.

Ötən illər olduğu kimi, Azərbaycanda növbəti illərdə də bir sıra mühüm idman tədbirlərinin keçirilməsi nəzərdə tutulur. Bunlardan biri ölkəmizdə keçirilən və dünyanın diqqətini cəlb edən ən əhəmiyyətli idman tədbirlərindən biri olan "Formula - 1" yarışmasıdır ki, artıq Azərbaycan dörd dəfə bu yarışa böyük müvəffəqiyyətlə ev sahibliyi etmişdir. Qarşıdan gələn illərdə də ölkəmiz öz yüksək təşkilatçılıq qabiliyyətini nümayiş etdirəcəkdir. Bütün bunlar, Azərbaycanın mötəbər idman yarışlarına müvəffəqiyyətlə ev sahibliyi etməsi ölkəmizdə mövcud olan sağlam mühitin və dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən islahatların məntiqi nəticəsidir.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Azərbaycan qətiyyətli mövqeyi və milli maraqları özündə əks etdirən siyasəti ilə daim irəli gedir

*Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyevanın yap.org.az-a müsahibəsi*

***- Sevinc xanım, Azərbaycan Respublikası hazırda bütün regional məsələlərin əsas iştirakçısıdır. Ölkəmizin mövqeyi bölgədə getdikcə daha da güclənir. Bu barədə fikirlərinizi bilmək istərdik...***

-Ümumiyyətlə, ölkəmiz Cənubi Qafqazın lideri olaraq bölgədə əsas söz sahibidir. Prezident İlham Əliyev mayın 27-də "Buta" sarayında Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə rəsmi qəbulda bildirib ki, biz artıq güclü iqtisadi potensial, güclü iqtisadi baza yaratmışıq. Dövlət başçısının qeyd etdiyi kimi, əgər bizim təşəbbüsümüzlə uğurla reallaşan nəqliyyat və enerji layihələrini əlavə etsək, görərik ki, doğrudan da Azərbaycan böyük yol keçmişdir. Cənab Prezidentin də vurğuladığı kimi, ölkəmiz, mühüm geosiyasi məkan kimi regionun özündə sülh və təhlükəsizliyin təmin edilməsi üçün dayaq nöqtəsi və ən perspektivli tərəfdaş hesab edilir.

Azərbaycan artıq praktik olaraq bütün regional məsələlərin əsas iştirakçısıdır və regionda strateji əhəmiyyətli bütün layihələrin həm onun razılığı, həm də iştirakı olmadan gerçəkləşdirilməsi mümkün deyil. Hazırkı inkişaf mərhələsində Azərbaycan Cənubi Qafqaz regionunda aparıcı mövqe tutan dövlət kimi, çətin və hətta mürəkkəb geosiyasi şəraitdə öz müstəqil siyasətini aparır. Bu sahədə əsas diqqət ölkənin ərazi bütövlüyünün tezliklə bərpasına, regionda təhlükəsizlik və sabitliyin güclənməsinə, Xəzər dənizi hövzəsinin demilitarizasiyasına, Avratlantik strukturlar və Avropa institutları ilə əməkdaşlığa yönəldilib. Eyni zamanda, iqtisadi baxımdan böyük və hiss olunacaq yüksəkliklərə çatıb, donor ölkə olub, inamla, müstəqil sərbəst siyasət apararaq regional lider kimi qəbul edilib.

***-Nəzərə alaq ki, Azərbaycanın artan nüfuzu müəyyən dairələr tərəfindən qıcıqla qarşılanır. Sizcə, bunun səbəbləri nədir?***

-Təbii ki, bu fakt bizi istəməyənləri sevindirə və göz qabağında olan uğurlarımıza bədxahlıqla yanaşanları narahat etməyə bilməz. Məhz buna görə də Azərbaycana qarşı informasiya müharibəsi aparılır, ölkəmizə dair məlumatları saxtalaşdırmağa cəhd edirlər, daha aydın ifadə etsək, bizə qarşı hibrid müharibə həyata keçirirlər. Hibrid müharibənin ənənəvi müharibədən əsas fərqlərindən biri müasir informasiya texnologiyalarının imkanlarının geniş istifadəsidir. Bacarıqlı əllərdə onlar düzgün informasiyanın qərəzli təhrif edilməsi vasitəsi, tarixin saxtalaşdırılması, bilərəkdən yalan məlumatların yayılması, uydurma faktların ortaya atılması, eləcə də ən çirkin sosial texnologiyaların istifadəsi mənbəyinə çevrilir. Bizim dövrümüzdə informasiya məkanı getdikcə daha çox döyüş əməliyyatlarının aparılması üçün meydan kimi nəzərdən keçirilir. Müasir münaqişələrin başlıca məqsədi isə rəqib üzərində informasiya üstünlüyünün qazanılması və qorunub saxlanılmasıdır. İnformasiya müharibəsi öz mahiyyətinə görə hibrid müharibənin başlıca elementidir. O, daim dezinformasiyaya, psixoloji təsirə, informasiya hücumlarına əsaslanır. İnformasiya üstünlüyü müasir münaqişələrdə qələbə qazanmağın zəruri şərtidir. Lakin informasiya müharibələri dinc dövrdə də



aparılır. Psevdoinformasiyanın daşıyıcıları qismində informasiya domenləri çıxış edə bilər. İnformasiya domenlərinə radio, yerüstü, kabel və peyk televiziyası, mətbuat, İnternet, sosial şəbəkələr, axın videolar, mobil telefonlar, ictimai təşkilatlar və şayiələr aiddir. Kütləvi informasiya və kommunikasiya vasitələri, internet qlobal informasiya şəbəkəsi, açıq informasiya resursları zəruri olduqda ictimai rəyin manipulyasiyası, dezinformasiya və hədəf ölkə ictimaiyyətində yanlış fikrin yaradılması məqsədilə fəal istifadə edilir. Azərbaycan qonşu Ermənistan tərəfindən bu cür hallarla dəfələrlə qarşılaşıb. Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı zamanı hərbi əməliyyatlardan başqa informasiya-psixoloji əməliyyatlar da tətbiq edilib. İşğal olunmuş ərazilərdə bir milyondan çox azərbaycanlı ilə münasibətdə qanlı etnik təmizləmənin törədilməsini gizlətmək üçün Ermənistan informasiya müharibəsinə, dezinformasiyaya əl atır və öz çirkin niyyətini müxtəlif bəhanələrlə və bizə qarşı atdığı böhtanlarla gizlətməyə çalışır. Erməni dairələri və ölkəmizə təzyiq etmək üçün səbəb axtaranlar inkişafımıza qısqanclıqla yanaşanlar, birbaşa və dolayısı ilə maddi və digər dəstək alan destruktiv müxalifət qüvvələrini də bu işə cəlb edir. Son zamanlar Azərbaycana qarşı başlanmış bu hibrid müharibəyə, çox təəssüflər olsun ki, xaricdə yaşayan bəzi azərbaycanlılar da qoşulub və bu minvalla xəyanət yolunu tutublar. Onlar internet məkanında getdikcə daha çox peyda olur, iğtişaş və itaətsizliyə daha fəal şəkildə çağırışlar edir, ölkənin ünvanına və hökumətə qarşı əsassız iddiaları daha sərt şəkildə irəli sürərək, ümumi qəbul edilmiş ədəb sərhədlərini keçərək təhqirlərə qədər alçalırlar.

Azərbaycan əzəldən müxtəlif sivilizasiya və mədəniyyətlər arasında körpü olub, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələri əsrlərboyu ölkəmizin ərazisində tam sülh və mütləq razılıq şəraitində yaşayıblar. Biz dünya ictimaiyyəti tərəfindən tanınmış din azadlığı, tolerantlıq və multikulturalizm nümunəsiyik. Buna görə də erməni təxribatının Azərbaycanda yaşayan xalqları bir-birinə qarşı qoymaq cəhdləri heç vaxt perspektivə malik olmayıb və olmayacaq da! "Dənizdən-dənizə böyük Ermənistan"ın yaradılması ideyasının daşıyıcılarının - "dünya ermənilən" adlı radikal ideologiya adeptlərinin törətdiyi saysız vəhşiliklər haqqında informasiya Azərbaycanın çoxsaylı xalqlarının yaxın keçmişinin tarixi yaddaşında çox yaxşı qalıb. Onların törətdiyi faciələr, saxta tarix yaratmaq cəhdləri bütün dünyaya məlumdur.

***-Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin diplomatik yolla həlli prosesinin hazırkı durumu haqqında nə deyə bilərsiniz?***

-Azərbaycan öz xarici siyasətini, ikitərəfli və çoxtərəfli əlaqələrini sırf beynəlxalq hüquq normaları, milli maraqları əsasında davam etdirir. Bunun nəticəsidir ki, Azərbaycanın beynəlxalq əlaqələri daha da genişlənib, ölkəmizin tərəfdaşlarının sayı artıb. Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında, yəni, ölkəmizin ərazi bütövlüyü çərçivəsində həlli istiqamətində qətiyyətli mövqeyini, prinsipial siyasətini davam etdirir. Son zamanlar beynəlxalq ictimaiyyət tərəfindən Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı bəyanatların səslləndirilməsi, bu istiqamətdə mühüm sənədlərin qəbul olunması Azərbaycanın haqlı mövqeyinin dəstəklənməsini ifadə edir. Ermənistan tərəfinin beynəlxalq hüquq normalarına zidd olan iddiaları isə heç bir nəticə vermir, dünya ictimaiyyəti bu cür iddiaları qəbul etmir. Bütün hallarda Azərbaycanın ərazi bütövlüyü və suverenliyi müzakirə mövzusu deyil. Azərbaycanın mövqeyi qəti və birmənalıdır. Bu gün hərtərəfli inkişafımızda əldə etdiyimiz uğurlarla yanaşı, informasiya müstəvisində də aktivliyimiz müsbət mənada nəzərə çarpır. Bu, bizim informasiya məkanında əldə etdiyimiz uğurların və ölkə rəhbərinin düzgün, uğurlu siyasətinin nəticəsində mümkün olub.

***-Ermənistan tərəfi təxribatçı addımlarını davam etdirir. ATƏT-in Minsk qrupunun həmsədrlərinin regiona səfəri zamanı erməni snayperi tərəfindən Azərbaycan hərbçisi qətlə yetirilib...***

-Əlbəttə ki, Ermənistanın təxribatçı hərəkətləri, o cümlədən erməni snayperlərindən istifadə olunması münaqişənin sülh yolu ilə həllinə zərbə vurur. Bu baxımdan, real vəziyyət dəyişməz olaraq qalır. Bilirsiniz ki, bizim güclü ordumuz var, ordumuz muasir texnika və avadanlığla təchiz olunub. Bütövlükdə, Azərbaycan Ermənistanla müqayisədə hər sahədə böyük dərəcədə üstündür.

Qeyd edim ki, torpaqlarımızı işğaldan azad etmək üçün müharibəyə başlamaq heç zaman gec deyil. Amma müharibə itki, fəlakət, dağıntı deməkdir, vaxtilə çox itkilərimiz olub. Yenidən qan tökülməsinin, dağıntıların baş verməsinin tərəfdarı deyilik. Ona görə də, bütün sülh yollarından istifadə etməliyik. Əks halda, biz müharibə yolu ilə torpaqlarımızı azad etməyə həm mənəvi, həm də hərbi nöqteyi nəzərdən hazırıq!

Bir sözlə, Azərbaycan qətiyyətli mövqeyi, milli maraqları özündə əks etdirən siyasəti ilə mətin addımlarla irəli gedir və heç bir təzyiq bizi qorxutmur, çəkindirmir. Çünki biz müstəqilliyimizin qorunması və dünyada sülhün bərqərar olunması üçün mübarizə aparır və fəaliyyət göstəririk. Bunun üçün hər birimiz bu gün ayıq-sayıq olmalı, ölkəmizə qarşı həyata keçirilən informasiya müharibəsində üstünlüyü əldə verməməliyik. Müstəqilliyimizin qorunması, əbədi olması üçün ölkə rəhbərinin qarşıya qoyduğu vəzifələrin icrasında yorulmadan fəaliyyət göstərməliyik.

## Ermənilər Rusiya vətəndaşlığı almağa can atırlar




Erməni rəsmiləri Rusiya vətəndaşlığı almaq üçün müraciət etməkdə davam edirlər. SİA Ermənistana məxsus Iragir.am saytının "Jamanak" qəzetində dərc olunan yazıya əsasən yayımladığı məlumata istinadən xəbər verir ki, keçmiş və indiki Ermənistan rəsmiləri Rusiya vətəndaşlığı əldə etmək üçün müraciət etməkdə davam edirlər. Məlumatda xüsusilə qeyd olunur ki, bu müraciətlər artıq son zamanlar intensiv xarakter alıb. Rəsmilər hesab edirlər ki, Rusiya vətəndaşlığı Ermənistanda gedən proseslərdən, təqiblərdən ən yaxşı müdafiə variantıdır.

## "XII qrant müsabiqəsi sırf gənclər təşkilatlarına şamil olunacaq"



"Gənclər Fondunun 12-ci qrant müsabiqəsi elan olunub". SİA-nın verdiyi məlumata görə, bunu Fondun icraçı direktoru Fərid Cəfərov jurnalistlərə açıqlamasında deyib. O bildirib ki, bu qrant müsabiqəsi çərçivəsində gənclər təşkilatlarının yerli və xarici layihələrinin maliyyələşdirilməsi həyata keçiriləcək. F.Cəfərovun sözlərinə görə, bu layihələrin prioritet mövzuları elan olunacaq və gənclər artıq bu gündən etibarən fonda müraciət edə biləcəklər: "Bildiyiniz kimi, Prezidentin müvafiq göstərişi ilə xaricdə gənclərin magistr pilləsi üzrə təhsil almasının maliyyələşdirilməsi də Gənclər Fonduna həvalə edilib. 23 may tarixində müvafiq elan verilib və bu istiqamətdə nəzərdə tutulan işlər barəsində müşahidə şurasına hesabat veriləcək".

Fondun icraçı direktoru vurğulayıb ki, 12-ci qrant müsabiqəsi sırf gənclər təşkilatlarına şamil olunacaq: "Fərdi gənclərin layihələri ilə bağlı müsabiqənin də yay aylarında artıq elan edilməsi nəzərdə tutulur. Əsas kriteriyalar ənənəvi mövzularla yanaşı, risk qrupunda olan gənclərin cəmiyyətə inteqrasiyası, sosial müdafiəyə ehtiyacı olan gənclərlə bağlı iş və s. proqramlardır. Fondun akkreditasiya sistemindən qeydiyyat keçmiş bütün qeyri-hökümət gənclər təşkilatları öz layihələri ilə bağlı Gənclər Fonduna müraciət edə bilərlər".

Əməkhaqları barədə məlumat verən Fond direktoru üstünlüyün sosial müdafiəyə ehtiyacı olan gənclərə verildiyini də diqqətə çatdırıb: "İş axtaran, iş təcrübəsi olmayan gənclər və müəyyən kateqoriyaya daxil olan regionlarda yaşayan gənclər də bura daxildir".

***Ceyhun Rasimoğlu***

## İlin sonunadək Hacıqabul və Sabirabad sənaye məhəllələrinin açılması nəzərdə tutulur



Bu il Hacıqabul və Sabirabad sənaye məhəllələrinin açılması nəzərdə tutulur. AZƏRTAC xəbər verir ki, bu barədə İqtisadiyyat naziri Şahin Mustafayev jurnalistlərə müsahibəsində bildirib. "Hacıqabul və Sabirabad sənaye məhəllələri ilə bağlı görülən işlər artıq yekun mərhələyə çatıb. Düşünürəm ki, hər iki sənaye məhəlləsi bu ilin sonunadək istifadəyə veriləcək", - deyə nazir qeyd edib.

# Ədəbiyyatımızın və ictimai fikrimizin inkişafında xidmətləri ilə seçilən yazıçı

*Dövlət başçısının Sərəncamı ilə Hüseyn Məmmədəli oğlu İbrahimovun anadan olmasının 100 illiyi qeyd olunacaq*

***Hər bir xalq öz mədəniyyəti və incəsənəti ilə tanınır. Bu gün Qədim Odlar Yurdu olan Azərbaycanı dünyada inkişaf etmiş mədəniyyət ölkəsi kimi də tanıyırlar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin vurğuladığı kimi, Azərbaycanı dünyada tanıdan bizim ziyalılarımızdır - alimlərimiz, rəssamlarımız, şairlərimiz, yazıçılarımız və bəstəkarlarımızdır.***

Odur ki, bu gün ölkədə mədəniyyət və incəsənətimizə və sənətkaralara böyük dövlət qayğısı vardır. Dövlət başçısının mədəniyyət və incəsənət sahəsində çalışan insanlara yüksək diqqət və qayğı göstərməsi, onların yubiley tədbirlərinin qeyd olunması ilə bağlı imzaladığı sərəncamlar bu qayğının daha bir bariz nümunəsidir. Dövlət başçısının bu günlərdə imzaladığı daha bir Sərəncamı ilə Azərbaycan ədəbiyyatında tarixi və müasir mövzularda yazılmış bir sıra romanların müəllifi kimi tanınan xalq yazıçısı Hüseyn Məmmədəli oğlu İbrahimovun anadan olmasının 100 illiyi qeyd olunacaq. Hüseyn İbrahimovun 100 illik yubileyinin qeyd edilməsi haqqında Prezidentinin Sərəncamına əsasən, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Yazıçılar Birliyinin təklifləri nəzərə almaqla, Hüseyn İbrahimovun 100 illik yubileyinə dair tədbirlər planı hazırlanıb həyata keçiriləcək.

Xalq yazıçısı H.İbrahimov yarım əsrdən artıq davam edən zəngin yaradıcılığı ilə ədəbiyyatımızın və ictimai fikrimizin inkişafında mühüm xidmətləri ilə seçilən, nəzərəçarpan məhsuldar yazıçı kimi xüsusi hörmət və nüfuz qazanmışdır. 1919-cu il mayın 23-də



Naxçıvan Muxtar Respublikasının indiki Şərur rayonunun Şaxtaxtı kəndində anadan olan H.İbrahimov orta təhsilini başa vurduqdan sonra Naxçıvan Pedaqoji Texnikumunda oxumuş, daha sonra Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil olmuş, 1958-ci ildə jurnalistika şöbəsini bitirmişdir.

H.İbrahimov ədəbi yaradıcılığa 1940-cı illərin əvvəllərində şeirlə başlamışdır. Onun 1950-ci illərdən etibarən qələmə aldığı hekayə, povest, roman və pyeslər müasirlərimizin mənəvi zənginliyini əks etdirən dolğun sənət nümunələridir. Onun yaradıcılığında Azərbaycan mədəniyyətinin görkəmli simalarının işıqlı obrazları parlaq bədii təcəssümünü tapmışdır. Tanınmış yazıçı yarım əsrdən artıq bir dövrü əhatə edən səmərəli ədəbi fəaliyyətinin məhsulu olan əsərləri ilə ədəbiyyatımızın inkişafına layiqli töhfələr vermişdir. Yazıçının xarici dillərə tərcümə olunmuş bir çox əsərləri ölkəmizin hüdudlarından kənarda yayılaraq, ədəbiyyatımızın şöhrətini daha da artırmışdır. Onun tərcümələri sayəsində isə, Azərbaycan oxucusu dünya ədəbi fikrinin bəzi dəyərli nümunələri ilə tanış olmaq imkanı qazanmışdır.

H.İbrahimovun ictimai fəaliyyəti də zəngin olmuşdur. O, üç çağırış Naxçıvan Ali Sovetinin və bir çağırış Naxçıvan Ali Məclisinin deputatı, 1963-cü və 1967-ci illərdə Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sədri seçilmişdir. Uzun illər, Naxçıvanın ictimai-siyasi həyatının fəal iştirakçısı olmaqla, regionda mədəni mühitin tarixi ənənələrinin qorunub-saxlanılması və eləcə də, müstəqillik ideallarına sadiq yaradıcı ədəbi qüvvələrin öz potensiallarını lazımınca gerçəkləşdirə bilmələri üçün böyük əmək sərf edib.

Ədibin uğurlu axtarışlarının nəticəsi kimi, müxtəlif janrlarda meydana gətirdiyi əsərlərdə müasirlərimizin zəngin mənəvi aləmi dolğun əks etdirilib və mədəniyyət tariximizin yetirdiyi bir çox görkəmli simaların işıqlı obrazları parlaq bədii boyalarla təcəssümünü tapıb.

Onun Azərbaycan ədəbiyyatının inkişafında göstərdiyi xidmətlər layiqincə qiymətləndirilmişdir. O, müstəqil Azərbaycanın ali mükafatlarından olan "Şöhrət" ordeni ilə təltif edilmişdir. Yazıçının özündən sonra qoyduğu irsi bu gün yaşayır və xüsusən, tarixi keçmişimizdən bəhs edən əsərləri oxucular tərəfindən rəğbətlə qarşılanaraq, gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunması işində əhəmiyyətli rol oynayır.

***Zümrüd BAYRAMOVA***

## Milli Məclisin Aqrar siyasət komitəsinin növbəti iclası keçirilib

İyunun 4-də Milli Məclisin Aqrar siyasət komitəsinin növbəti iclası keçirilib. AZƏRTAC xəbər verir ki, komitənin sədri Eldar İbrahimov gündəlik barədə məlumat verdikdən sonra "Aqrar sığorta haqqında" qanun layihəsi ikinci oxunuşda müzakirə olunub. Bildirilib ki, qanun layihəsi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin birinci hissəsinin 27-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikasında aqrar sahədə risklərin müştərək sığorta mexanizmi vasitəsilə sığortalanması ilə bağlı münasibətləri tənzimləyir, aqrar sığortanın hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edir.



Sonra "Azərbaycan Respublikasının Konsul Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında", "Dövlət rüsumu haqqında", "Baytarlıq haqqında", "Ekoloji təmiz kənd təsərrüfatı haqqında" və "Lisenziyalar və icazələr haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi ikinci oxunuşda təqdim olunub. Qeyd edilib ki, qanun layihəsi dövlət baytarlıq xidməti ilə dövlət baytarlıq nəzarətinin bir-birindən fərqləndirilməsi və onların sərhədlərinin dəqiq müəyyən edilməsini nəzərdə tutur. Bununla da bu sahədə fəaliyyət göstərən orqanların (o cümlədən Kənd Təsərrüfatı Nazirliyi və Qida Təhlükəsizliyi Agentliyi) fəaliyyətinin səmərəliliyi artacaq. Bu məqsədlə dövlət baytarlıq xidmətinin əhatə dairəsini müəyyən edən yeni maddə əlavə edilir. Dövlət baytarlıq xidməti bilavasitə kənd təsərrüfatı sahəsi olan heyvandarlığın inkişafına, dəstəklənməsinə, heyvan xəstəlikləri ilə mübarizə aparılmasına yönəlib.

Dövlət baytarlıq nəzarəti isə əhalinin sağlam heyvan mənşəli qida məhsulları ilə təmin olunmasını (bu məqsədlə qida məhsullarının bütün mərhələlərində ona nəzarətin təşkilini) əhatə edəcək. Eyni zamanda, dövlət baytarlıq nəzarəti baytarlıq xidmətinin keçirilməsi və təşkilinə nəzarəti də təmin edir. Bundan başqa, qanun layihəsi idxal, ixrac və tranzit zamanı heyvan mənşəli qida məhsullarına nəzarət sahəsində səlahiyyətlərin dəqiqləşdirilməsini, o cümlədən sərhəd buraxılış məntəqələrində baytarlıq nəzarəti məntəqələrinin təşkili qaydasının dəqiqləşdirilməsini, epizootiya sahəsində monitorinqin keyfiyyətinin yüksəldilməsi məqsədilə epizootiya monitorinqinin aparılması qaydasının müəyyən edilməsini nəzərdə tutur. Qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə olunub.

# Ümumi təhsilin müasir standartlar istiqamətində inkişafına zəmin yaradılıb

*Dövlət başçısının "Ümumi təhsil haqqında" Qanununun tətbiqi barədə imzaladığı Fərman ümumi təhsilin təmin olunması sahəsində dövlət siyasətinin əsas prinsiplərini, ümumi təhsilin təşkilati-hüquqi və iqtisadi əsaslarını müəyyən edir*

***Azərbaycanda elmin inkişafı və təhsil sahəsinin beynəlxalq standartlar səviyyəsində qurulması dövlət siyasətinin öncül istiqamətlərindəndir.***

Cənab İlham Əliyev Prezidentlik fəaliyyətinin ilk illərində "Neft kapitalını insan kapitalına çevirməliyik!" devizi altında təbii resurslara əsaslanan iqtisadiyyatdan biliklər iqtisadiyyatına keçidi ölkənin strateji hədəfi elan etməsi əbəs deyildi. Qeyd etdiyimiz zaman məsafəsində təhsil müəssisələrinin müasir informasiya və elmi-metodiki təminatı, təhsil infrastrukturunun yenilənməsi məqsədi ilə dövlət proqramları qəbul edilmiş və layihələr həyata keçirilmişdir. Son illərdə reallaşdırılan infrastruktur layihələri çərçivəsində tikilən, əsaslı təmir edilən üç mindən artıq təhsil müəssisələrində sinif otaqlarının kompüterləşdirilməsi, müasir avadanlıqlarla təchiz olunması məktəblilərin təhsilinə müsbət təsirini göstərir. Ümumiyyətlə, Azərbaycan təhsilini beynəlxalq standartlara uyğunlaşdırmaq üçün atılan addımlar, onu deməyə əsas verir ki, Prezident İlham Əliyevin "qara qızıl"ın insan kapitalına çevrilməsi çağırışı uğurla reallaşmaqdadır.

Görülən işlərin davamı olaraq, Azərbaycan Prezidenti "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1532-VQ nömrəli Qanununun tətbiqi barədə 27 may tarixində Fərman imzalayıb. Həmin Qanunun tətbiqini təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti altı ay müddətində Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb, dövlət başçısına təqdim edəcək.

Ümumi təhsil haqqında Azərbaycan Respublikası qanunvericiliyinin əsas məqsədi vətəndaşların ümumi təhsil sahəsində Azərbaycan Respublikasının Konstitusiyası ilə nəzərdə tutulmuş təhsil hüququnu təmin etməkdən, ümumi təhsil prosesi iştirakçılarının hüquqlarını və vəzifələrini müəyyən etməkdən, onlar arasında münasibətləri tənzimləməkdən və ümumi təhsilin təşkilati-hüquqi bazasını yaratmaqdan ibarətdir.

Qanunda ümumi təhsil sahəsində dövlət siyasətinin əsas prinsiplərinin humanistlik, bərabərlik, inteqrasiya, keyfiyyətlilik, varislik kimi dəyərlər olduğu qeyd olunur. Ümumi təhsil sahəsində dövlət siyasətinin əsas istiqamətləri sırasında ümumi təhsilin məzmununun fərdin, cəmiyyətin və dövlətin tələblərinə, elmi-texniki tərəqqinin inkişafına çevik uyğunlaşdırılması dayanır. Dövlət hər bir vətəndaşın ümumi təhsil alması üçün müvafiq şərait yaradılmasına təminat verir və ümumi təhsilin hər hansı səviyyəsindən və formasından məhrum edilməsinə yol vermir. Ümumi təhsilin inkişafı üçün stimullaşdırıcı tədbirlərin tətbiqi, ümumi təhsilin müasir infrastrukturunun yaradılması və davamlı inkişafının təmin edilməsi nəzərdə tutulur. Dövlət cinsindən, irqindən, dilindən, dinindən, siyasi əqidəsindən, etnik mənsubiyyətindən, sosial vəziyyətindən, mənşəyindən, sağlamlıq imkanlarından asılı olmayaraq, hər bir vətəndaşa ümumi təhsil almaq imkanı yaradılmasına və ayrı-seçkiliyə yol verilməməsinə təminat verir. Ümumi təhsil haqqında Azərbaycan Respublikasının Qanununun qüvvəyə minməsi təhsilin müasir standartlar istiqamətində inkişafına zəmin yaradacaq. Bu qanunun qəbulu ümumtəhsil haqqında bütün məsələləri özündə cəmləşdirib. Qanunun bir neçə maddəsində istedadlı şagirdlərin stimullaşdırılması ilə bağlı çox ciddi məqamlar da öz əksini tapıb.




Qanunun 1-ci fəsli ümumi müddəalardan, 2-ci fəsli ümumi təhsilin təşkilindən, 3-cü fəsli ümumi təhsil sisteminin idarə olunması, təhsil subyektlərinin hüquqları, vəzifələri və sosial müdafiəsindən, 4-cü fəsli ümumi təhsilin iqtisadiyyatından, 5-ci fəsli isə yekun müddəalardan ibarətdir. Bu Qanun ölkəmizdə ümumi təhsilin təmin olunması sahəsində dövlət siyasətinin əsas prinsiplərini, ümumi təhsilin təşkilati-hüquqi və iqtisadi əsaslarını müəyyən edir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Ermənistan hərc-mərclik və xaos burulğanında



## Və yaxud işğalçı ölkənin manqurt Paşinyanı





***Yerevanda ara yenidən qarışıb. Ümumi yurisdiksiya məhkəməsinin Robert Koçaryanı azadlığa buraxması işğalçı ölkədə vəziyyəti dahada gərginləşdirib. N.Paşinyan keçmiş separatçı və "prezident" R.Koçaryanı mayın 19-da ümumi yurisdiksiya məhkəməsinin zaminlik əsasında həbsdən azad etməsini erməni dövlətçiliyinə xəyanət adlandıraraq, insanları yenidən küçələrə çağırıb.***

Onun sözlərinə görə, Dağlıq Qarabağdakı ermənilər Ermənistandakı korrupsiya sistemindən daha çox zərər görüblər. Əvvəlki iqtidar Qarabağdakı əlaqələrindən istifadə edərək, indiki Ermənistan hakimiyyəti haqqında yalan məlumatlar yayır. Hətta hərbi əməliyyatların başlaması üçün şantaja əl atırlar. Yəni məqsədləri Azərbaycanı hərbi əməliyyatlara təhrik etməkdir və torpaqların bir qismini azərbaycanlılara qaytarmaq planları mövcuddur. N.Paşinyan bununla bağlı konkret faktın olmadığına dair heç nə deməyib.

N.Paşinyan ilk öncə məhkəmə binalarını mühasirəyə almağın vacibliyindən danışıb. Bu çağırışa, bəzi məlumatlara görə, 1000 nəfər reaksiya verib və hamısı dərhal məhkəmələrin ətrafına toplaşıb. Ermənistan hökumətinin bu addımı ölkə daxilində və beynəlxalq aləmdə birmənalı qarşılanmayıb.

Ancaq baş verənlərdən belə bir məntiqi nəticə çıxır ki, Ermənistanda növbəti dəfə siyasi böhran yaranıb. İndi N.Paşinyan hüquq-mühafizə sistemində öz xeyrinə dəyişiklik etməyə çalışır.

Bütün bu aspektlərin yekunu belədir: erməni lider hara gedirsə, özü ilə ancaq söz, boş vədlər, saxta tarix aparır və oradan da ancaq söz alıb qayıdır. Onu müasir erməni siyasətinin "söz taciri" adlandırmaq olar. Yeri gəlmişkən, bu "tarixi töhfə" ona əcdadlarından miras qalıb desək, daha doğru olar.

### Erməni xalqının peşmançılığı

Ermənistanda Nikol Paşinyanın komandasının hakimiyyətə gəlməsi ilə erməni cəmiyyəti müəyyən real dəyişikliklərə ümid edirdi. Proseslər göstərir ki, onlar yenə yanılıblar. Yeni hakimiyyət





əvvəlkilən də betərdir. Belə ki, Paşinyan reallığı ört-basdır etməklə, hər hansı müsbət bir nəticə əldə etmək xülyası ilə fəaliyyət göstərir. Bu, həm daxili sosial-iqtisadi vəziyyətin ağır olaraq qalmasında, həm də Ermənistan-Azərbaycan münaqişəsinin həllində özünü göstərir. Ermənistan rəhbərliyi ənənəvi absurd mövqeyi ilə özünün durumunu daha da ağırlaşdırır, eyni zamanda, münaqişənin danışıqlar yolu ilə həllini mürəkkəbləşdirməkdə davam edir. Buna beynəlxalq ictimaiyyətin reaksiyası getdikcə artır. Bir sıra ekspertlər Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərini tərk etməkdən başqa yolunun olmadığını açıq vurğulayırlar.

### Ədalətin bərpası: sadə həqiqətlərin qəbul edilməsi şərti



N.Paşinyanın başlanğıc kimi təqdim etməyə çalışdığı vəziyyət reallıqda işğalın son mənzərəsidir və bu mənada, dəyişməlidir. Həmin dəyişiklikdən sonra yaranacaq mənzərə başlanğıcdır. Bütün bunlar Ermənistanın münaqişənin həlli ilə bağlı hazırda tutduğu mövqe barədə müəyyən təsəvvür əldə etməyə imkan yaradır. Hər şeydən öncə, bir daha aydın olur ki, rəsmi Yerevan problemə səmimi yanaşmır. Ermənistanın sosial-iqtisadi vəziyyətinin bərbad olaraq qalması və yeni hakimiyyətin real addım ata bilməməsi ictimai rəyi başqa məsələlərə yönəltməyi tələb edir.

Rusiyalı ekspert Aleksandr Duqin də Ermənistanın öncə, beş rayonu boşaltmasının zəruri olduğunu vurğulayıb. Bundan sonra nizamlama prosesinin növbəti mərhələlərinə keçmək olar. Digər ekspertlərin də fikirlərini xatırlatmaq olar. Lakin onların hamısının bir ortaq fikri var: Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarından qoşunlarını çəkməlidir. Burada reallıq aydın görünür. Rəsmi Yerevan nə qədər söz hoqqabazlığı etsə də, ondan indi hər kəs zəbt etdiyi ərazilərdən silahlı quldur dəstələrini çıxarmağı tələb edir.

Bunun hansı formatda ediləcəyi məsələsi artıq danışıqların predmetidir. Hər bir halda, aydındır ki, əsas şərt Ermənistanın təcavüzkar olaraq Azərbaycanın işğal etdiyi ərazilərindən çıxmasından ibarətdir.

Beləliklə, bütün bu baş verənlərdən belə bir məntiqi nəticə alınır ki, reallıq da budur: təcavüzkar zəbt etdiyi torpaqlardan getməlidir, vəssalam! Bu problemin həllini istəyən beynəlxalq qurumlar işğalçı erməni silahlılarını Azərbaycan ərazilərindən çıxarmalıdırlar. Bunun isə ehtimalı azdır. Onda Azərbaycan Ordusu "donuzu darıdan çıxarmalı" olacaq!

**A.SƏMƏDOVA**

# İnsanlar Ramazan ayından fərqli təəssüratlarla ayrılırlar

## Hacı Şahin Həsənli: "İbadətə, oruca başlamazdan əvvəl insan fikirləşməlidir ki, bunu hansı şəkildə edəcək"

***"Hər bir ibadət, əməl bitdikdən sonra insan nə qazandığını araşdırmalı, öz əməlini təftiş etməlidir". Bu fikirləri SİA-ya tanınmış ilahiyyatçı Məşədi Dadaş məscidi dini icmasının rəhbəri Hacı Şahin Həsənli Ramazan ayının başa çatması və bir sıra əməlləri ilə bağlı danışarkən deyib.***

Onun sözlərinə görə, müsəlmanlar müqəddəs Ramazan ayından fərqli təəssüratlarla ayrılırlar: "İnsanlar bu aya müxtəlif şəkildə yanaşırlar. Bəziləri vacib ay kimi tələb olunanlara riayət edir, bəziləri böyük şövqlə oruc tutur, bəziləri isə ac qaldıqlarına görə, daha kobud rəftar edirlər. Lakin hər bir halda, bütün bunlar insanların öz yanaşmalarından asılıdır. Əslində isə, ibadət insana zövq verməlidir".

### "Əgər insan Ramazan ayında hansı hallar keçirdiyini, daxilində mənəvi inkişafın təkan verdiyini anlasaydı, şübhəsiz ki, bu müqəddəs ayı daha rəğbətlə qarşılayardı"

İlahiyyatçının sözlərinə görə, ibadətə, oruca başlamazdan əvvəl, insan fikirləşməlidir ki, bunu hansı şəkildə edəcək: "Məsələn, biz də övladımızdan nə isə xahiş etdikdə, övladımız xahişimizi könülsüz şəkildə icra edərsə, bir valideyn kimi bundan narazı qalarıq, baxmayaraq ki, övladımız bizim dediyimizi etdi. Amma üzündə narazılıq ifadəsi olarsa, biz artıq bunu özümüzə qarşı hörmətsizlik kimi qəbul edərik. O cümlədən, Allahın hökmlərini icra edərkən, insan Ramazan ayının nə qədər rəhmət, bərəkət, bağışlanma, məğfirət gətirdiyini anlamalıdır. Əgər insan Ramazan ayında hansı hallar keçirdiyini, daxilində mənəvi inkişafın təkan verdiyini anlasaydı, şübhəsiz ki, bu müqəddəs ayı daha rəğbətlə qarşılayardı".

### "Biz istənilən halda Allaha layiq olan tərzdə ibadət edə bilmirik və ümidimiz Onun rəhmətinə və mərhəmətinədir"

Hacı Şahin Həsənlinin sözlərinə görə, Allah bu ayda insanlara o qədər rəhmət bəxş edir ki, oruc tutanlar bu ibadətlərini nə qədər ürəkdən etsələr belə, yenə də həmin ibadətlər yetərli olmur. İnsan, sadəcə, bağışlanacağına ümid edir: "Düşünürəm ki, Ramazan ayından ümidlə ayrılırıq, çünki biz, istənilən halda, Allaha layiq olan tərzdə ibadət edə bilmirik və ümidimiz Onun rəhmətinə və mərhəmətinədir. Bu ayda insan Rəbbin mərhəmətini daha yaxından hiss edir. İnsan hiss edir ki, çox kiçik bir məhrumiyyətin müqabilində Allah insana çox şeylər bəxş edir. Əslində, biz könüllü şəkildə bir sıra şeylərdən imtina edirik və bir neçə saat müxtəlif əməllərdən çəkinirik, amma istər bu ayda olan əhval-ruhiyyə, istər iftar və imsak zamanı yaşanan sevinc, istər Qiyamət Günü Allahın qarşısında dayandığımız zaman, orucun əvəzində, bizə verəcəyi nemətlər çoxdur".

### "İnsan Ramazan ayının orucunu tutmaqla, ruhunu təzələyir, o, hiss edir ki, bu ayın əvvəlki vaxtla sonrakı vaxtında nə qədər dəyişikliklər var"

"Əslində, biz böyük bir iş görməmişik və orucu bizə bəxş etdiyinə görə, Ramazan ayından Allaha minnətdarlıq hissi ilə ayrılmalıyıq" deyən ilahiyyatçı hesab edir ki, Ramazan həm də ruhi paklıq, mənəvi saflıq ayıdır və bu baxımdan, il ərzində, günah əməllər nəticəsində, ruha hopmuş qara nöqtələr təmizlənir: "Ramazan ayının bir adı da yandırandır, yəni günahların mənşəyini yandıraraq, qəlbdən çıxarır. Doğrudan da, bir ay ərzində insan etdiyi əməllərin təsirlərini ürəyindən çıxarır. İnsan Ramazan ayının orucunu tutmaqla, ruhunu təzələyir, o, hiss edir ki, bu ayın əvvəlki vaxtla sonrakı vaxtında nə qədər dəyişikliklər var. Yəni insan bunu yaşamalı və həzz almalıdır ki, Ramazan ayının sonunda bunu özündə hiss edir".

"Həmçinin, oruc tutmaq sağlamlıq cəhətindən də insanın cisminə faydalarını verməkdədir" deyə bildirən Hacı Şahin Həsənlinin sözlərinə görə, oruc, eyni zamanda, cəhənnəm qarşısında bir sipərdir: "Cəhənnəm odu deməklə, burada insanın günah odu nəzərdə tutulur. Oruc olarkən, insan müxtəlif günahlardan özünü qoruyur ki, axirətdə də bu sipər, zireh kimi təcəssüm olunmaqdadır".

### "Təkid olunub ki, bayram namazı məscidlərdə cəm halda qılınsın"

Məşədi Dadaş məscidinin dini icra rəhbəri bayram namazı, fitrə və zəkat barədə də bir sıra mühüm məqamlara toxunaraq, bildirib ki, Ramazanın sonu Fitr bayramı qeyd olunur ki, bu çox böyük bir bayramdır: "Hədislərdə yazıldığına görə, göydən nida gəlir ki, ey oruc tutanlar, ey ibadət edənlər hədiyyələrinizi almağa tələsin. Yəni orucun mükafatı, məhz Fitr bayramında təqdim olunur, insanlar məscidlərə bayram namazı qılmağa gedirlər. Bayram namazı iki rəkətdir, birinci rəkətdə beş, ikinci rəkətdə isə dörd qunut tutulur və qunutların da xüsusi duaları var ki, insan həmin duaları oxumaya da bilər, yəni vacib deyil. Ümumiyyətlə, deyim ki, bayram namazı vacib olmasa da, çox bəyənilən əməllərdəndir. O cümlədən, bayram namazı tək olaraq, camaat namazı olaraq da qılına bilər. Lakin təkid olunub ki, bayram namazı məscidlərdə cəm halda qılınsın".

### "Bayram namazına qədər fitrə zəkatı vermək təkid olunmaqdadır, çatdırılmasa, günortaya qədər bu edilməlidir"

"Fitrə-zəkata qaldıqda isə, Fitr bayramının yeganə vacib əməli fitrə zəkatını icra etməkdir" deyən ilahiyyatçıya görə, fitrə zəkatı verməyən şəxs oruc tutmayan kimi sayılır, təbii ki, bu əməli yerinə yetirməyə imkanı varsa: "fitrə zəkatı ailə başçısı adından adambaşına üç kiloqram arpa, buğda, kişmiş, düyü, un, xurma və s. ərzaqların məbləği qədər verilə bilər.

Qafqaz Müsəlmanları İdarəsi bunu beş və ya on manat miqdarında hesablayıb. Fitrə zəkatı yaxınlara, qohumlara, qonşulara, ehtiyacı olan şəxslərə verilməlidir. Yəni fitrə zəkatı bayram axşamı, ay görünəndən sonra evdən çıxarılmalıdır. Ən geci bayram namazına qədər bu əmələ icra olunmalıdır. Bayram namazları səhər saat 8-9 arasında qılınacaq. Ümumiyyətlə, bayram namazına qədər fitrə zəkatı vermək təkid olunmaqdadır, çatdırılmasa bu, günortaya qədər edilməlidir".

**RÖVŞƏN NURƏDDİNOĞLU**



# Ramazan ayı gözəl niyyətlər və xeyirxah əməllər ayıdır

***Bu gün müasir, müstəqil Azərbaycan ölkə Prezidenti İlham Əliyevin dövlət-xalq birliyinə əsaslanan müdrik siyasəti, qətiyyətli iradəsi sayəsində yeni zəfərlər qazanır və qlobal təşəbbüslərin mərkəzinə çevrilir. Ölkəmiz multikultural dəyərləri təşviq edir və dünyanı həmrəyliyə dəvət edir. Ölkə başçısının həyata keçirdiyi siyasət nəticəsində Azərbaycan ekstremizm, radikalizm və terrorizmə qarşı mübarizənin önündə gedən dövlətlərdən biridir və islam dünyasının inkişafına öz töhfəsini verir.***

Sülh, əmin-amanlıq və təhlükəsizlik şəraitində inkişaf dövrünü yaşayan Azərbaycan mövcud olan tolerantlıq və dözümlülük ənənələri ilə zəngin olan dövlətə çevrilib. Ölkədə formalaşan tolerantlıq və dözümlülük Azərbaycan cəmiyyətini səciyyələndirən ənənəyə çevrildiyindən, bu gün ölkəmiz dini tolerantlığın ünvanı olaraq, dünyada tanınır. Tarixi ənənələrin, müasir zamanda isə, müvafiq qanunvericiliyin və məqsədyönlü dövlət siyasətinin göstəricisi olan tolerant mühit, multikultural dəyərlər insanların dinindən və irqindən asılı olmayaraq, siyasi sabitliyi, əmin-amanlığı ilə seçilən ölkədə - Azərbaycanda firavan həyat sürməsinə əsas verir. Bu məkanda hər kəs milli mənsubiyyətindən və irqindən asılı olmayaraq, azad nəfəs alır və sərbət fəaliyyət göstərir. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan çoxkonfessiyalı və çoxmillətli ölkədir və bu, bizim böyük sərvətimizdir: "Biz nümayiş etdiririk ki, yalnız bu yolla inkişaf etmək olar. Özünütəcrid, nifrət hisslərinin bəslənilməsi və ya özünün digərlərindən üstün tutulması bumeranq effekti verəcək və nəticədə, bu işlə məşğul olanların özlərinə xələl gətirəcək".

Müxtəlif dini mənsubiyyətə malik insanların cəmiyyətimizin ayrılmaz tərkib hissəsi olaraq dövlətin diqqət, qayğı və himayəsini eyni dərəcədə üzərlərində hiss etməsi də Azərbaycanda tolerantlıq mühitinin əsas göstəricisidir. Bütün bunlar Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi və Onun siyasi kursunun layiqli davamçısı Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasət sayəsində reallaşıb.



Bəli, bu gün Azərbaycan dünyəvi, müasir və dünyaya açıq olan dövlət olmaqla yanaşı, milli dəyərlərə, adət-ənələrində böyük hörmətlə yanaşan bir ölkədir. Azərbaycan Prezidenti İlham Əliyev islami dəyərlərin milli dəyərlərimizin ayrılmaz tərkib hissəsi kimi dəyərləndirir: "Bizim çox möhkəm təməlimiz var. Bu, bizim milli dəyərlərimizdir və bu dəyərlər bizim üçün hər şeydən üstündür. Biz çalışırıq və nail oluruq ki, gənc nəsil də milli ruhda böyüyür və yetişir. Milli dəyərlər bizim üçün həmişə ən prioritet məsələ olmalıdır".

Müstəqil dövlətimizdə Azərbaycan xalqının milli və dini mərasimləri, bayramları hər il dövlət səviyyəsində qeyd olunur. Hikmətlər xəzinəsi "Qurani-Kərim"in nazil olduğu mübarək Ramazan bayramı da bu gün böyük sevinclə qeyd edilir. Azərbaycan Prezidenti İlham Əliyev Ramazan bayramı münasibətilə Azərbaycan xalqına ünvanladığı təbrikdə bəşər övladını xeyirxahlığa, birliyə, mənəvi kamilliyə dəvət edən, öz mahiyyəti ilə insanların ruhunu təzələyən Ramazan ayının dünya müsəlmanlarının ən əziz ayı olduğu bildirilir. Qeyd edilir ki, oruc tutmaqla inanclı insanlara mənəvi-ruhi ucalığın, əxlaqi saflığın fərəhini, şəfqət, mərhəmət, həmrəylik duyğularının sevincini yaşadan Ramazan ayı ilahi hikmətlər xəzinəsi müqəddəs Qurani-Kərimin nazil olması ilə əlamətdardır: "Ramazan bayramı günlərində mömin vətəndaşlarımız Uca Yaradan qarşısında vicdani borc və vəzifələrini ləyaqətlə yerinə yetirmək, mənəvi zənginliyin üstünlüyünü yaşamaq fürsəti qazanırlar. Bu bayram insanları savab əməllərə dəvət edir, onları yer üzündə sülhün, əmin-amanlığın və qardaşlığın bərqərar olması naminə birgə səylər göstərməyə çağırır."

İslamda ilin ayları arasında ən şəfaqətli və ən müqəddəs ay hesab edilən Ramazan ayı insanları gözəl niyyətlər və xeyirxah əməllər naminə birliyə çağırır ki, Azərbaycan xalqı da, bu ay ərizində, əmin-amanlıq və qardaşlıq kimi dəyərləri nümayiş etdirmiş oldu. Oruc tutmaqla insanlar iradə qüvvələrini, dözümlüyünü, təmiz olduqlarını da göstərə biliblər. Müsəlmanlar bu ayda Allah və din qarşısında borc və vəzifələrini ləyaqətlə yerinə yetirmək fürsəti qazanırdılar ki, bu gün də Orucluğun sınaqlarından alnıaçıq çıxan insanlar bu bayramı yüksək əhvali-ruhiyyə ilə qeyd edirlər.

Vurğulanır ki, Azərbaycan islam sivilizasiyasının tərkib hissəsi kimi, bəşəriyyətin mədəni irsinə öz töhfələrini verib, böyük alimlər və mütəfəkkirlər yetişdirib. İslam və onun mahiyyətindən irəli gələn sülhpərvərlik, dözümlülük, bərabərlik, qardaşlıq və bu kimi dəyərlər Azərbaycanda tolerantlıq mühitinin, cəmiyyətdə vəhdət və harmoniyanın yaranmasında, multikulturalizm və humanizm ideyalarının bərqərar olmasında müstəsna rol oynayıb. Təbrikdə qeyd edilir ki, bu günlər ölkəmizin hər yerində xalqımızın əmin-amanlığı üçün dualar edilir, şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. "İnanıram ki, bu müqəddəs bayram günlərində sizin dua və dilələkləriniz Tanrı dərgahında qəbul ediləcək, Uca Yaradan öz mərhəmətini xalqımızdan əsirgəməyəcəkdir. Bir daha hər birinizi və ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımızı ürəkdən təbrik edir, ailələrinizə səadət, süfrələrinizə bol ruzi və bərəkət arzulayıram" deyə dövlətimizin başçısı bildirir.

Ramazan bayramı Ramazan ayının sonunda, Orucun sona çatması münasibətilə qeyd edilir. Ramazan ayı təzə ay çıxandan başlanır və 29-30 gün davam edir. Orucluğun başa çatdığı gün fitr bayramı adlanır ki, həmin gün bütün müsəlmanlar bir-birlərini təbrik edir, vəfat edənlərin qəbirlərini ziyarət edir və ruhlarına dualar oxuyurlar. Xalqımız mübarək Ramazan ayını, hər il olduğu kimi, bu il də böyük sevinc hissi ilə yola salır.

Ramazan bayramınız mübarək!

***Zümrüd BAYRAMOVA***




# Antimilli təfəkkürlü "mühacirlər"

## Və yaxud erməni lobbisinin dəmtutanları

***Bu gün güclü Azərbaycan dövləti dinamik inkişaf edir və həyata keçirdiyi siyasətlə beynəlxalq müstəvidə nüfuzunu daha da artırır. Bu isə, ölkəmizin inkişafını istəməyən bəzi xarici dairələri narahat edir. Alçaqlıq bataqlığında eşələnlər, lənət olsun erməni üfunəti verən sizlərə! Azərbaycan dövlətinə düşmən qüvvələrin əlində aləti olmaqla heç vaxt çirkin niyyətlərinizə çata bilməyəcəksiniz. Çünki Azərbaycan güclü dövlətdir və ölkəmizdə sarsılmaz xalq-iqtidar birliyi mövcuddur.***

Məhz bunun nəticəsidir ki, əvvəlki beynəlxalq tədbirlər kimi, növbəti Bakıda baş tutmuş UEFA Avroliqası finalı öz möhtəşəmliyi və bir sıra əhəmiyyətli ilkləri ilə Avropa məkanına nəyə qadir olduğunu sübuta yetirdi. Təkcə, "Çelsi" və "Arsenal" derbisindən əvvəl paytaxtımıza axışan minlərlə futbol azarkeşləri onlara göstərilən diqqət və qayğıdan, xidmət keyfiyyətindən, özəlliklə, futbol finalı ab-havasına sadəcə, heyran qaldılar. Sübut olundu ki, bu vaxta qədər Azərbaycanda keçirilən hər bir beynəlxalq idman hadisəsinin uğurla başa çatdırılması heç də təsadüf sayıla bilməz. Bir daha Azərbaycanın böyük beynəlxalq tədbirləri, o cümlədən, bütün dünyanın diqqət mərkəzində olan idman yarışlarını yüksək səviyyədə təşkil etmək bacarığını nümayiş etdirdi. Sübut olundu ki, bu vaxta qədər Azərbaycanda keçirilən hər bir beynəlxalq idman hadisəsinin uğurla başa çatdırılması heç də təsadüf sayıla bilməz. Avropada "siyasi mühacir" adı altında" oturub, Azərbaycana qarşı yönəldilən qara "PR" kampaniyaları isə elə beşikdəcə boğuldu.

### <u>Siyavuş Novruzov:</u> "O "mühacirlər" Avropada küçə süpürməklə məşğuldurlar"

YAP İcra katibinin müavini, millət vəkili Siyavuş Novruzov sözügedən məsələ ilə bağlı açıqlamasında bildirib ki, Vətən, xalq təəssübündən məhrum olan və Avropanın müxtəlif ölkələrində məskunlaşan "mühacirlər"in sosial şəbəkələrdə dövlətə, xalqa qarşı əxlaqsızcasına "qara piar" kampaniyasını davam etdirməsi şübhəsiz, anti-Azərbaycan dairələrin və erməni lobbisinin "ənənəvi layihələr"inin növbəti epizodudur: "Hamımız yaxşı bilirik ki, anti-Azərbaycan dairələrin ölkəmizdə reallaşdırılan yerli və beynəlxalq əhəmiyyətli tədbirlər ərəfəsində "sapı özümüzdən olan baltaları" tora salaraq, öz çirkin və məkrli oyunlarına alət edərək, respublikamızı hədəfə alması uzun illərdir ki, "ənənə" halını alıb. Anti-Azərbaycan dairələrin, erməni lobbisinin və onlarla işbirliyində olan milli satqınların- müxtəlif bəhanələrlə Qərbin ayrı-ayrı ölkələrində məskunlaşaraq, zibilxanalarda küllənən orduxanların, turalların, məhəmmədlərin, rafayılların, eləcə də, AXCP sədri Əli Kərimlinin, "Milli Şura"nın rəhbəri Cəmil Həsənlinin, qondarma "hüquq müdafiəçisi" Leyla və Arif Yunusların və onlarının tör-töküntülərinin, "yaldaşlar"ının, el



arasında deyildiyi kimi, "fısları yatacaq". Bu xəyanətkarlar öz ağalarından aldıqları "yemlərini" nəhəng pitonlar kimi udaraq, bir müddət gizlinə çəkilərək, onu həzm etməklə məşğul olacaqlar. Azərbaycan əleyhdarlarının ikrah doğuran əməlləri bütün detalları ilə ortadadır. Onlar Azərbaycanın düşmənləridir. Bəs adını azərbaycanlı qoyaraq, onların dəyirmanına su tökən Vətən, millət dönüklərinin bu mənəviyyatsız, namərd əməllərinə nə ad vermək olar? Ölkəsinə, millətinə, şərböhtan, təhqir yağdıran bu satqın "söyüş makinaları" Orduxan Teymurxan, Tural Sadıqlı, Məhəmməd Mirzəli, Vidadi İsgəndərli və digərləri pul, var-dövlət toplamaq həvəsi milli kimliklərini unutmuş əxlaqsızlardır".

### <u>Elşən Musayev:</u> "Leyla Yunus kimilər Azərbaycanın deyil, Ermənistanın uğurlarına seviniblər"

Həyasızlığın həddinə bax ki, belə bir əxlaqsız - L.Yunus Azərbaycanı cəbhə dövründə yeyib-talayıb, bu gün isə böhtan yağdırır. Cinayət bataqlığında eşələnən L.Yunus, sən o L.Yunus deyilsən ki, hər zaman Azərbaycana qarşı satqınlıqla məşğul olmusan?..

Millət vəkili Elşən Musayev bildirib ki, L.Yunus kimilər Azərbaycanın deyil, Ermənistanın uğurlarına seviniblər: "L.Yunus tək deyil, bu gün Azərbaycanda çoxlu sayda ona bənzərlər var: "Xarici dairələr həmişə Azərbaycanda L.Yunuslar yetişdirməyə çalışıb. Biz yeni L.Yunusların yetişməməsi üçün həssas olmalıyıq. Belələri Azərbaycana qarşı ermənidən daha betərdir".

### Xainlərə güzəşt olmamalıdır

Bəlkə də belə sərt deyilən söz kimlərdəsə qıcıq yarada bilər. Amma belələrinin çörəyi dizinin üstündədir. Bir də satqın və Vətən xainindən nə gözləmək olar? L.Yunus kimilər dövlət tərəfindən əfv olunsalar da, yenə də öz əxlaqsızlıqlarını nümayiş etdirirlər. Çünki L.Yunusun mahiyyəti, xisləti budur. Bu adamın genetik erməni bağlılığı var və deməK olar ki, həmin genetika əsl gerçəyi ədaləti, azərbaycanlı-erməni qarşıdurmasının fonunda faktiki reallığı inkar etmək gücündədir.

Belələri bilməlidirlər ki, Vətənin halal çörəyinə kəm baxıb, özgənin (həm də düşmənin) yalı ilə bəslənənləri tarix heç vaxt bağışlamır.

**Rəfiqə HÜSEYNOVA**

# İsrail prezidentinin həyat yoldaşı vəfat edib



İsrail Prezidenti Neham Rivlinin həyat yoldaşı Ruvena Rivlin donar ağciyərin köçürülməsi əməliyyatından bir neçə ay sonra 73 yaşında vəfat edib. "The Jerusalem Post" qəzetinin məlumatına görə, bu barədə İsrailin Baş naziri Binyamin Netanyahunun dəftərxanası məlumat yayıb. Prezidentin həyat yoldaşı bu ilin mart ayında ağciyərin köçürülməsi ilə bağlı əməliyyat keçirmişdi. O, bir neçə ildir ki, ağciyər fibrozundan əziyyət çəkirdi.

# AXH-də "al gəldi" ənənəsi

## Müxalifət razborka şakərindən qurtula bilmir

***Ənənəvi müxalifət düşərgəsinin, müxtəlif birlik və qurumlarda təmsil olunarkən, əlbəyaxa çıxıb, bir-birlərinə əl qaldırmalarından başlayaraq, küçə söyüşləri ilə təhqirə yol verməLəri faktları kifayət qədərdir. Biz, bənzər hadisələri "DUBB", "SİDSUH", "MKM", "Azadlıq", "Bizim Azərbaycan", "İctimai Palata", "Milli Şura" kimi qurumlarda dəfələrlə müşahidə etmişik. Parçalanmalar, şəxsi münasibətləri ümumi maraqlara qurban vermək kimi hadisələr bu müxalifətin dəyişilməz şakərinə çevrilib.***




### Küçə təfəkküründən o yana keçə bilməyən ənənəvi müxalifətçilər

Bu yaxınlarda düşərgədə yaradılmış növbəti birlik - "Azərbaycan Xalq Hərəkatı" adlı qurumda da eyni hadisələr təkrarlanmaqdadır. Əbəs deyil ki, "AXH" yarandıqdan az sonra iki hissəyə parçalandı və bu parçalanma tərəflərin bir-birlərini xainlikdə suçlamaları ilə nəticəsini tapdı. Xüsusilə, hazırda müalicə alan "AMDP" sədri İsgəndər Həmidovun "Ağ partiya" sədri Tural Abbaslı ilə qarşıdurmasını xatırlasaq, ənənəvi düşərgənin "al gəldi" prinsipi ilə idarə olunması qənaətinə gələ bilərik. Ümumiyyətlə, küçə təfəkküründən o yana keçə bilməyən ənənəvi müxalifətçilər yalnız hakimiyyətə və xalqa qarşı radikallıq, dağıdıcılıq fəaliyyətləri ilə seçilmirlər, onların bu fəaliyyətləri bir-birlərinə qarşı da yönəlib ki, biz daha bir hadisəni incələyərkən, bu ətrafda əmin olmağa başlayırıq.

### Tagir Abbaslı ilə Mətləb Mütəllimli "AXH"dən qovulublar

Belə ki, "Azərbaycan Xalq Hərəkatı" adlı qurumun qanadlarından birində də vəziyyət gərginləşib. Hətta həmin qanadın parçalanaraq, qurumun iki deyil, üç hissəyə bölünməsinin mümkünlüyü an məsələsinə çevrilib. Məlum olub ki, keçirilən sonuncu iclasda "Azadlıq" partiyasının sədri Əhməd Orucla "Sosial Ədalət Partiyası"nın sədri Mətləb Mütəllimli arasında gərginlik yaşanıb. Tərəflər, hətta bir-birilə əlbəyaxa olmaq həddinə çatıblar. Şahidlərin iddialarına görə, Ə.Oruc M.Mütəllimliyə fiziki müdaxilə etməklə, əl qaldırıb və xəsarət yetirib. Həmçinin, digər məlumata görə, əlbəyaxa dava səbəbi ilə "hərəkatın" idarə heyətinin növbədənkənar toplantısı çağırılıb və münaqişənin bu həddə çatmasına səbəb kimi, "İslam Demokrat Partiyası"nın sədri Hacı Tahir Abbaslı göstərilib. Nəticədə, partiya sədri hərəkatdan qovulub. Lakin davada iştirak edən M.Mütəllimlinin də "AXH"dən qovulduğu bildirilir. Baş verənlər isə, bir daha bu nəticəyə gəlməyə zəmin yaradır ki, düşərgədə kimliyindən asılı olmayaraq, heç vaxt ümumi maraqlar olmayıb, bundan sonra da olmayacaq. Daha dəqiq desək, ənənəvi müxalifətin münasibətlər baxımından, bir prinsipi - "al gəldi" prinsipi mövcuddur.

**Rövşən RƏSULOV**

# "Substantiv danışıqlar aparılsa da, icra mexanizmi yoxdur"

***"Ermənistanın status-kvonu uzatmaqda məqsədi qondarma qurumu hansısa statusla tanıtmaqdır. Bunu Qərb də artıq başa düşür. Azərbaycan yalnız işğalçıların həmin əraziləri tərk etdikdən sonra status vermək iqtidarındadır". Bu fikirləri SİA-ya açıqlamasında siyasi-şərhçi Arzu Nağıyev deyib.***



O bildirib ki, Ermənistan bufer zonaları saxlamaqla qurumun hanısa statusuna nail olmasını düşünsə də, bu alınmır: "Çünki Ermənistan tərəfindən əsas şərtlərə - yəni BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul olunan 4 qətnamə yerinə yetirilmir, işğalçı işğal olunan ərazilərdən çıxmır, Vyana və digər protokollara məhəl qoyulmur. Bir sözlə, Ermənistan hakimiyyəti vaxt udmağa çalışır. Çox təəssüf ki, ATƏT-in Minsk qrupunun həmsədrləri də buna susur".

Siyasi şərhçi söyləyib ki, ATƏT-in Minsk qrupunda təmsil olunan Rusiya, Fransa, ABŞ BMT-də təmsil olunan 5 ölkə sırasında olsalar da, münaqişənin həlli ilə bağlı Azərbaycana qarşı hər zaman ikilistandartlı mövqedən çıxış edirlər: "ABŞ-la Rusiya arasında nüfuz davası gedir. Fransa isə daim öz ermənipərəst mövqeyi ilə tanınır. Amma onlar da anlamalıdırlar ki, münaqişənin sonu müharibə ilə nəticələnə bilər. Danışıqlar effekt vermirsə, Azərbaycan bundan sonra 25 il gözləməyəcək. İstər Ali Baş Komandan, istərsə də digər qurumların rəhbərləri də dəfələrlə açıqlamalarında bildiriblər ki, hərb variantı istisna deyil. Bu baxımdan regional oyunçular baş verənlərə reaksiya verməlidirlər".

A.Nağıyev qeyd edib ki, Azərbaycanla Ermənistan arasında substantiv danışıqlar aparılsa, da icra mexanizmi yoxdur: "Necə ola bilir ki, qərarlar qəbul edilir və onun icrası istiqamətində hər iki dövlət bəyanat verir amma həll olmur? Görüşlərin Rusiyada və ya ABŞ-da keçirilməsi sadəcə bu ölkələrin nüfuz davasıdır. Lakin bizim üçün əhəmiyyətli olan məsələn hansı ölkənin münaqişənin həqiqətən də həll edilməsində maraqlı olmasıdır. Təəssüf ki, Ermənistandan icra mexanizmini tələb edən yoxdur. Belə olan halda Azərbaycan güc nümayiş etdirməklə erməniləri danışıqlar masasına əyləşdirməkdən başqa yolu qalmır".

**Nailə Məhərrəmova**

# Psixi sağlamlıq hüququna beynəlxalq qayğı

***Məlum olduğu kimi, psixi sağlamlığın başlıca əhəmiyyəti 1975-ci ildən başlayaraq, son 40 il ərzində, Avropa İttifaqı Şurasının və ÜST-nin qətnamələrində vurğulanmaqdadır. 2001-ci ildə ÜST "müasir biliklərə və insan hüquqlarına hörmət edilməsinə əsaslanan psixi sağlamlıq sahəsində siyasət, proqramlar və qanunvericiliyin müəyyən edilməsini" tövsiyə etmişdir. "Dövlətlər səhiyyə sahəsindəki planlarında psixi sağlamlıq problemlərinə prioritet diqqət yetirilməsinə görə məsuliyyət daşıyırlar". Peter Morralın və Mayk Hazeltonun 2004-cü ildə dərc olunmuş monoqrafiyasının 10 fəsli Böyük Britaniya, ABŞ, Avstraliya, İtaliya, Misir, Hindistan, Braziliya, Rusiya, Çin və Mozambikdə bu problemə həsr olunmuşdur.***

2005-ci ildə Cenevrədə "ÜST-nin psixi sağlamlıq, insan hüquqları və qanunvericilik üzrə əsas məlumatlar sorğusu" işıq üzü gördü. Bu cür toplular əvvəllər də çap olunmuşdur, lakin onlara daim əlavələr edilir. Sonuncu sorğu kitabında "psixi pozğunluğu olan insanların hökumət və fiziki şəxslər ... tərəfindən diskriminasiyasından və insan hüquqlarının digər pozuntularından müdafiə olunması sisteminin yaradılması"nda qanunvericiliyin rolu ilə bağlı dəqiq fikirlərin olmasını qeyd etmək lazımdır.

Bununla da, idarədənkənar dövlət nəzarətindən başqa, ictimai nəzarətin zəruriliyi də əsaslandırılır. Son illər ərzində, ictimaiyyətin etirazlarına baxmayaraq və dəha tez-tez ictimai müzakirələr keçirilmədən qəbul edilən mühüm qanunlar seriyası cəmiyyətin gözündə bütün sistemin legitimliyini şübhə altına aldığından, 2008-ci ildə Aİ psixi sağlamlığın qorunması üzrə Avropa Fəaliyyət Planını dərc etdirməklə, mühüm addım atdı. Hər bir kəs internet sorğusu əsasında, Fəaliyyət Planının hazırlandığı psixi sağlamlığın qorunması üzrə Avropa Bəyannaməsi ilə tanış ola bilər. Bəyannamədə "psixi sağlamlıq və psixi rifah", həmçinin, psixi sağlamlıq problemləri olan şəxslərin profilaktikası, müalicəsi və reabilitasiyası "prioritet vəzifələr" sayılır. 12-ci bənd - səmərəliliyin qiymətləndirilməsi qeyri-müəyyən olsa da, bu, hökumətlərin psixi sağlamlıq sahəsində beynəlxalq hüquq normalarına görə, hesabat verməli olduqları istiqamətində daha bır addımdır.

Bizdə psixi sağlamlığın mühüm rolunun, xususən də, ölkənin öz öhdəlikləri kimi başa düşülməsi çox şübhə doğurur. Bu, psixiatriyadan yan keçilən Kopenhagen Bəyannaməsinin imzalanmasında, sonra təbabətin sosial əhəmiyyətli sahələrinin əlavə maliyyələşdirilməsindən də görünür.

O zaman bu yol psixo-gigiyena və profilaktika prinsipləri ilə həvəsləndirilsə də, lakin şəxsiyyəti heç cür prioritetlər sırasına qoymayan dövlətin maraqları ilə toqquşmaya səbəb oldu.

Hazırda oxşar siklin başlanğıcında, onun hər şeydən öncə, ehtiyat yığımları ideologiyası ilə, habelə, Qərb demokratiyasının zəngin təcrübəsi ilə qidalandığı yaxşı görünməkdədir.

A.Mustafayeva yazır: "Azərbaycan Respublikasının bütün fəaliyyəti psixi sağlamlığın qorunması üzrə Avropa Fəaliyyət Planının əsas məqsəd və vəzifələrinə uyğun gəlir. Lakin onun fəaliyyət miqyasları cüzi büdcə və təcrid cəhdləri ilə məhdudlaşmışdır. Hətta idarədənkənar dövlət nəzarətinin həyata keçirilmədiyi bir şəraitdə ictimai nəzarətin gerçəkləşməsi uğrunda mübarizə aparmağın nə qədər çətin olduğu başa düşüləndir.

Artıq çoxdan məlumdur ki, dövlət prinsipcə cəmiyyətin səyləri olmadan, psixi sağlamlıq problemlərinin öhdəsindən gəlmək iqtidarında deyil. Psixi sağlamlığa gedən yol mütləq hüquqi cəmiyyətdən keçir.

Bizim şəraitimizdə qaçılmaz xərclərin proqnozu və onların qabağının alınması zəruridir. Əks halda, bu, piar naminə növbəti görüntü, kağız müəssisəsi olacaq. Bizim keyfiyyətcə başqa bir kontekstimiz hər hansı yaxşı başlanğıcın nəticələrini də tanınmaz dərəcədə dəyişə bilər. Ona görə də, qapalı kuluar praktikası əvəzinə, psixiatriya təşkilatlarının nümayəndələri bütün ciddi məsələlərin müzakirəsi, həlli və onların icrasına nəzarət edilməsinə cəlb olunmalıdırlar.

Psixi sağlamlıq sahəsində Azərbaycan Respublikasının hansı milli prioritetləri var?

Ən fundamental və birinci dərəcəli məsələlər sırasında aşağıdakı tədbirlər sistemi ola bilər:

Birincisi, daxili işlər orqanlarının işinin qiymətləndirilməsi qismində açılmış hüquq pozuntularının sayından istifadə edilməsinin dayandırılması və işgəncələrdən kütləvi istifadəyə son qoyan sübut kimi etiraf ifadələrinin qadağan olunmasının təmin edilməsi;

İkincisi, peşəkar ordunun yaradılması - bu, orduya yeni çağırılanların alçaldılmasının, intiharların və beləliklə də, qeyri-döyüş itkilərinin, eləcə də, orduda xidmət nəticəsində, post-travmatik stress pozğunluqlarının azalmasına kömək edərdi;

Üçüncüsü, vərəmin və sərhədyanı psixi pozğunluqlarının mənbəyi olmaqda davam edən penitensiar müəssisələrin islahatı.

Birbaşa psixiatriya yardımına gəlincə, bu, aşağıdakılardan ibarətdir:

- təcili tədbirlər qismində pulsuz dərmanlarla bağlı yubanmaları aradan qaldırmaq;

- gerçək prioritetlərə əsaslanaraq, baş həkimlərə ayrılmış vəsaitlərdən istifadə etmək hüququnun verilməsi;

- maliyyələşmənin, ən azı, iki dəfə artırılması;

"Psixiatriya yardımı haqqında" Qanunun 38-ci maddəsinin həyata keçirilməsi;

- uşaq kitablarından başlayaraq, stiqmatizasiya və diskriminasiya ilə mübarizə;

-psixi xəstələrin qohumlarının ictimai təşkilatlarına və pasiyentlərin özlərinə daha əlverişli rejimin yaradılması;

- ictimai nəzarət haqqında qanunun qəbul edilməsi;

- qeyri-dövlət ekspertizası haqqında qanunun qəbul edilməsi.

Nazirliklərin təlimatı və ya əsgərlər üçün hərbi nizamnamələr kimi, güc strukturları tərəfindən kuluarlarda yazılan qanunlar vasitəsilə hüquqi requlyasiyaya ümid bəsləmək sadəlövhlük olar. Qanunun işləməsi məqsədilə onun üçün cəmiyyətdə konsensus tapmaq lazımdır. Bu isə, o deməkdir ki, qanunu gerçək müstəqil ictimai təşkilatlarla işləyib-hazırlamaq gərəkdir.

Biz müasir şəraitdə bu cür vəzifələrin praktikliyini yaxşı başa düşürük. Lakin bu istiqamətdə zəifləməyən peşəkar və ictimai təzyiqin zəruriliyinə də əminik."

Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən tətbiq edilən Psixi Sağlamlıq Sistemlərinin Qiymətləndirilməsi üçün Vasitə (ÜST-PSSQV) Azərbaycan Respublikasında 2006-cı ilə mövcud olan psixi sağlamlıq sistemi haqqında məlumatların toplanmasında istifadə olunmuşdur. Bu məlumatların toplanmasında məqsəd psixi sağlamlıq sistemini təkmilləşdirmək və dəyişikliklərə nəzarəti təmin etmək üçün əsas hazırlamaqdır. Nəticədə, Azərbaycan Respublikasında psixi sağlamlıqla ağlı dəqiq məlumatlara əsaslanmış, aydın baza, informasiyaya və hədəflərə malik planlar tərtib etməyə imkan yaranacaqdır. Bu, həmçinin, islahatlar siyasətinin həyata keçirilməsində, icma yönümlü xidmətlərin verilməsində, psixi sağlamlıq sahəsində maarifləndirmə, profilaktika, müalicə və reabilitasiya məsələlərinə pasiyentlərin, ailələrin və digər iştirakçıların cəlb edilməsində baş verən irəliləyişləri müşahidə etmək üçün faydalı olacaqdır.

Ölkədə psixi sağlamlıq məsələləri ilə məşğul olan rəsmi qurum yoxdur. On bir ambulator psixiatriya müəssisəsinə hər 100 000 nəfər ümumi əhalidən 1092 nəfər müraciət edir. Gündüz stasionarları kifayət qədər istifadə olunmur və onlarda hər 100 000 nəfər ümumi əhali üçün 24,9 pasiyent müalicə olunur. Ümumi tipli xəstəxanalardan yalnız ikisində stasionar psixiatriya şöbəsi mövcuddur və onların çarpayı sayı hər 100 000 nəfər əhali üçün 0,71-ə bərabərdir. Bu stasionar psixiatriya şöbələrində uşaqlar və yeniyetmələr üçün çarpayılar nəzərdə tutulmamışdır. Ölkədə ümumi çarpayı sayı hər 100 000 nəfər əhali üçün 48,9-a bərabər olan doqquz psixiatriya xəstəxanası vardır. Psixiatriya xəstəxanalarına, ilk növbədə, şizofreniyadan əziyyət çəkən, şizofreniyaya bənzər əlamətlərlə və sayıqlama ilə müşayiət edilən xəstəlikləri olan pasiyentlər (36%) qəbul edilir. İnsan hüquqlarının pozulması halları bəzi stasionar psixiatriya müəssisələrində müşahidə edilir. Kultural xüsusiyyətlərlə əlaqədar olaraq, Azərbaycan Respublikasında qadınlar tibbi yardım üçün psixiatriya müəssisələrinə kişilərdən daha az müraciət edirlər. Belə ki, Azərbaycan Respublikasında qadınların ailə çərçivəsində qayğısına, Qərb ölkələri ilə müqayisədə, daha çox diqqət yetirilir. Psixiatriya müəssisələrinə müraciət edənlərə psixososial sahədə hər hansı köməklik göstərilmir. Psixiatriya müəssisələrinin hamısında (100%), müəssisədə tətbiqi mümkün olan hər dərman qrupu üzrə, heç olmasa, bir pulsuz psixotrop preparatla təmin olunmuşdur.

İlkin səhiyyə xidməti işçiləri psixi sağlamlıqla bağlı hər hansı təlimlər keçmirlər və nadir hallarda psixiatriya müəssisələri ilə qarşılıqlı əlaqələr yaradırlar.

Hər 100 000 nəfər əhaliyə psixi sağlamlıq sahəsində çalışan 22 işçi düşür. Sosial işçilər və klinik psixoloqlar üçün bu göstəricilər, xüsusilə, aşağı səviyyədədir. Peşə xəstəlikləri üzrə mütəxəssislər arasında psixi sağlamlıq məsələləri ilə məşğul olanlar yoxdur. Psixi sağlamlıq sahəsində çalışan işçilər, əsasən, psixiatriya xəstəxanaları və paytaxt şəhəri olmaqla, qeyri-bərabər şəkildə paylanmışdır. Psixi sağlamlıq məsələləri ilə əlaqədar istehlakçılar və ya ailələr tərəfindən yaradılmış hər hansı assosiasiya yoxdur.

PS sahəsində nəşr olunan materiallara və aparılan məlumatlandırma kampaniyalarına nəzarət edən heç bir əlaqələndirici qurum mövcud deyil. İşlə və yaşayış yeri ilə təminat, həmçinin, işdə və yaşayış yerində ayrı-seçkilik hallarının qarşısının alınması qanunvericilikdə nəzərdə tutulmuşdur, ancaq praktikada tətbiq edilmir. PS xidməti ilə İİV/QİÇS, reproduktiv sağlamlıq, narkotik vasitələrdən sui-istifadə məsələləri ilə məşğul olan idarə/təşkilatlar, hərbi və kriminal ədliyyə orqanları arasında rasmi əlaqələr mövcuddur.

Məlumatlar müxtəlif səviyyəli müəssisələr tərəfindən verilmiş hesabatlar əsasında toplanmış və tərtib edilmişdir. Qeyd etmək lazımdır ki, həmin hesabatlar hər hansı bir dövlət qurumu tərəfindən nəşr edilib yayılmamışdır. Ölkədə aparılmış tədqiqatlar, əsasən, psixi pozğunluqların klinik cəhətdən qiymətləndirilməsi, psixiatriya xidmətlərinin tədqiq olunması, psixososial, psixoterapevtik və farmakoloji müdaxilələr üzərinə yönəlmişdir.

**VAHİD ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*



# "YARDIM ET!"

## *YAP Xaçmaz rayon təşkilatı və Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə müharibə və əmək əlillərinə bayram sovqatı verilib*





Yeni Azərbaycan Partiyası və rayon təşkilatları, mütəmadi olaraq, müharibə və əmək əlillərin, kimsəsizlərə baş çəkir, imkanları daxilində köməklik və yardımlar edirlər.

Dünən YAP Xaçmaz rayon təşkilatı və Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə Ramazan bayramı münasibəti ilə "YARDIM ET" kampaniyası çərçivəsində 15 nəfər şəhid, Qarabağ əlili, xəstə və kimsəsiz ailələrə bayram sovqatı paylanıb.

Şəhid, Qarabağ əlili, xəstə və kimsəsiz ailələr də respublika rəhbərliyinin onlara göstərdiyi qayğıya görə, minnətdarlıqlarını bildiriblər.

***R.HÜSEYNOVA***

## ELAN

ADPU-nun İbtidai təhsil fakültəsinin II kurs tələbəsi İsmayılova Kəmalə Ədalət qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

ADPU-nun Coğrafiya müəllimliyi ixtisası üzrə V kurs tələbəsi Allahverdiyev Şahbaz Miri oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

ADPU-nun Coğrafiya müəllimliyi ixtisası üzrə I kurs tələbəsi Nəbiyeva Ləman Dursun qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## BAŞSAĞLIĞI

YAP Şəki rayon təşkilatının sədri Həsən Həsənov və aparat əməkdaşları YAP İcra Katibliyinin Sənədlərlə iş və statistika bölməsinin müdiri

**Afət xanımın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir, mərhumun ailə üzvlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

***Allah rəhmət eləsin.***

***

YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov və aparat əməkdaşları YAP İcra Katibliyinin Sənədlərlə iş və statistika bölməsinin müdiri

**Afət xanımın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir, mərhumun ailə üzvlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

***Allah rəhmət eləsin.***


# səs

Son səhifə 5 iyun


# YAP Qusar rayon təşkilatı İmaməddin Nəsiminin 650 illiyinə həsr olunmuş şeir müsabiqəsi keçirib

***Dünən YAP Qusar rayon təşkilatı tərəfindən rayonun ümumtəhsil məktəblərinin X-XI sinif şagirdləri arasında Azərbaycanın mütəfəkkir şairi İmaməddin Nəsiminin 650 illiyinə həsr olunmuş şeir müsabiqəsi keçirilib.***



Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə 2019-cu ilin "Nəsimi İli" elan edilməsi haqqında Sərəncamı ölkəmizin mədəni həyatında əlamətdar hadisəyə çevrilib. Bu Sərəncam dövlət başçısının bədii sözə və ədəbiyyatımıza, incəsənət və mədəniyyətimizə verdiyi böyük dəyər və qayğının daha bir nümunəsidir. Dövlət başçısının müvafiq Sərəncamına əsasən, Nəsiminin 650 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması ölkədə milli mədəniyyətə və incəsənətə yüksək səviyyədə münasibətin göstəricisidir. Ölkə ictimaiyyəti "Nəsimi İli" çərçivəsində milli-mənəvi dəyərlər silsiləsinin Nəsimi irsini bütün platformalarda müzakirə edir və geniş səpkidə tədbirlər reallaşır.



YAP Qusar rayon təşkilatı tərəfindən keçirilən müsabiqədə 50 nəfərə qədər məktəbli iştirak edib.

Səsləndirilən əsərlərdə İmadəddin Nəsiminin Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustalarından olduğu bir daha öz ifadəsini tapıb. İmadəddin Nəsiminin anadilli şeirin humanist ideyalarla, yeni məzmun və bədii lövhələrlə daha da zənginləşməsində misilsiz xidmətləri var. Mütəfəkkir şairin şeirlərində, qəzəllərində dərin poetik fikirlər, fəlsəfi görüşlər və dövrün elmi-fəlsəfi düşüncəsi aydın ifadə edilib.

Münsiflər heyətinin qərarı ilə müəyyən olunmuş qaliblər diplomlarla və pulla mükafatlandırılıblar.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Ümumi təhsil məktəblərinin buraxılış siniflərini 49 mindən çox şagird bitirəcək



2018-2019-cu tədris ilində Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyindəki ümumi təhsil məktəblərinin IX siniflərini 28 min 993, XI siniflərini 19 min 786 nəfər bitirəcək. BŞTİ-dən AZƏRTAC-a bildirilib ki, paytaxtda 45 min 616 nəfər I sinfi, 655 nəfər XII sinfi (əyani-qiyabi tam orta məktəb və qiyabi sinifləri) başa vuracaq. BŞTİ-nin tabeliyində fəaliyyət göstərən xüsusi məktəblərdə isə IX sinfi 399 nəfər bitirəcək. Cari tədris ilində BŞTİ-nin tabeliyindəki ümumi təhsil məktəblərində 424 min 118 şagird təhsil alır. BŞTİ-nin tabeliyindəki ümumi təhsil məktəblərində ümumilikdə, 27 min 563 müəllim fəaliyyət göstərir.

2018-2019-cu tədris ilində paytaxt üzrə 264 ümumi təhsil məktəbində fəaliyyət göstərən 919 məktəbəhazırlıq qrupunu 23 min 840 uşaq başa vurub. Növbəti tədris ilində dövlət hesabına fəaliyyət göstərən məktəbəhazırlıq qruplarına cəlb ediləcək uşaqların sayı beşyaşlıların 90 faizini təşkil edəcək. İyunun 4-nə olan məlumata əsasən, 2018-2019-cu tədris ili üçün paytaxtdakı ümumi təhsil müəssisələrinin I sinfinə mektebeqebul.edu.az saytı vasitəsilə 44 min 875 sorğu yerləşdirilib. Onlardan 41 min 430-u ümumi təhsil məktəblərini, 3445-i isə lisey və gimnaziyaları seçib.


*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur

*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**